

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyası arasında əməkdaşlıq memorandumu imzalanıb



9

# "17 noyabr xalqın dirçəlişidir"




12

SƏS

№ 208 (7133)

15 noyabr 2024-cü il.
Qiymәti 60 qәpik

# COP29 - Bakıdan dünyaya mühüm ÇAĞIRIŞLAR!




4

## COP29 xaricilərin gözündə



12

## "Müəllimlər daha çox şəhərlərdə işləməyə üstünlük verir"



16

## Arzu Erdem: "COP29-un Bakıda keçirilməsi Azərbaycanın ətraf mühit məsələlərindəki liderlik rolunu bir daha nümayiş etdirir"



10

## "COP29-dan sonra evə xoş xatirələrlə qayıdacağam" - Fongoh Eric



12

## Adı ŞİRİN, özü ACI



13

# Azərbaycan - mühüm və etibarlı TƏRƏFDAŞ!

## Prezident İlham Əliyev dünən bir sıra dövlət və hökumət başçıları ilə mühüm görüşlər keçirib

***Prezident İlham Əliyev noyabrın 14-də Efiopiya Federativ Demokratik Respublikasının Prezidenti Taye Atske Sellasiye ilə görüşüb. Taye Atske Sellasiye Efiopiya Federativ Demokratik Respublikasının Baş naziri Abiy Əhməd Əlinin salamlarını dövlətimizin başçısına çatdırdı. Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Efiopiyanın Baş nazirinə çatdırmağı xahiş etdi.***

COP29-a dəvətə görə dövlətimizin başçısına minnətdarlığını bildirən Taye Atske Sellasiye bu tədbirin mükəmməl səviyyədə təşkil edildiyini, uğurla keçirildiyini və burada iştirak səviyyəsinin çox yüksək olduğunu dedi. Qonaq dövlətimizin başçısının çıxışının dolğun və məzmunlu olduğunu vurğulayaraq, buna görə təşəkkürünü bildirdi.

Efiopiya Prezidenti ölkəmizə səfəri çərçivəsində Azərbaycanın "ASAN xidmət" təcrübəsi ilə tanışlığın onda çox böyük təəssüratlar yaratdığını və bu təcrübənin ölkəsində tətbiqi məsələsinə baxıldığını dedi. O, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə Efiopiya Federativ Demokratik Respublikasının Dövlət Xidməti Komissiyası arasında Anlaşma Memorandumunun imzalandığını qeyd etdi.

Efiopiya Prezidenti azad ticarət zonaları sahəsində Azərbaycanın təcrübəsinin ölkəsi üçün maraqlı olduğunu vurğuladı, turizm, kənd təsərrüfatı, investisiyalar və digər sahələrdə əməkdaşlıq imkanlarına toxundu, böyük perspektivlərin olduğunu dedi.

İnkişaf etməkdə olan dövlətlər arasında həmrəyliyin gücləndirilməsinin önəmini vurğulayan Prezident İlham Əliyev qeyd etdi ki, Azərbaycan Afrika ölkələri ilə əlaqələrin inkişafına böyük əhəmiyyət verir.

"ASAN xidmət" təcrübəsinə toxunan dövlətimizin başçısı bu sahədə Azərbaycanın hər cür dəstək göstərməyə hazır olduğunu dedi. Söhbət zamanı ölkələrimiz arasında beynəlxalq təşkilatlarda, bərpaolunan enerji və digər sahələrdə əməkdaşlıq məsələlərinə toxunuldu, iqtisadi məsələlər üzrə hökumətlərarası komissiyanın yaradılmasının vacibliyi vurğulandı. Efiopiya Prezidenti dövlətimizin başçısını ölkəsinə rəsmi səfərə dəvət etdi. Prezident İlham Əliyev dəvətə görə minnətdarlığını bildirərək, Efiopiya Prezidentini və Baş nazirini Azərbaycana rəsmi səfərə dəvət etdi.










Dövlətimizin başçısı dünən Avropa Şurasının Baş katibi Alen Berse ilə görüşüb. COP29-a dəvətə görə dövlətimizin başçısına təşəkkürünü bildirən Avropa Şurasının Baş katibi bu tədbirin qısa müddət ərzində təşkil edilməsini yüksək qiymətləndirdi.

Prezident İlham Əliyev qeyd etdi ki, adətən sədr ölkələrin COP-un təşkil edilməsi üçün iki ilə qədər vaxtları olduğu halda, Azərbaycanın cəmi 11 ayı var idi və təşkilatçılıq işləri bu müddət ərzində həyata keçirilib.

Dövlətimizin başçısı dedi ki, mahiyyəti üzrə COP29-da danışıqlar prosesində artıq irəliləyişlər var. Belə ki, 10 ildən artıq müzakirə olunan Paris Sazişinin altıncı bəndi üzrə ilkin nəticələr əldə olunub və bu istiqamətdə danışıqlar davam etdiriləcək. Həmçinin yeni maliyyə hədəfinin müəyyən olunması ilə əlaqədar beynəlxalq maliyyə strukturları tərəfindən verilən açıqlamalar da müsbət mesajlar kimi qiymətləndirilir. COP29-da yeni maliyyə hədəfinin müəyyən olunacağına ümidvarlığını ifadə edən Azərbaycan Prezidenti dedi ki, xüsusən inkişaf etməkdə olan dövlətlərin bu məsələdə böyük gözləntiləri var. Alen Berse vurğuladı ki, Avropa Şurası ətraf mühitlə bağlı cinayətlərə və iqlim dəyişmələri ilə əlaqədar məsələlərə böyük əhəmiyyət verir və bunlar təşkilatın gündəliyində yer alıb.

Qonaq Avropa Şurası çərçivəsində dövlətlərin müxtəlifliyi prinsipinin xüsusi əhəmiyyət daşıdığını dedi.

Dövlətimizin başçısı Azərbaycanın Avropa Şurası ilə əməkdaşlıq çərçivəsində ölkəmizin bu təsisatın 76 müxtəlif konvensiyasına qoşulduğunu qeyd etdi. Görüşdə müxtəlif sahələrdə əməkdaşlıq məsələləri müzakirə olundu, Azərbaycanın təşəbbüsü ilə Avropa Şurası və İslam Əməkdaşlıq Təşkilatı arasında yaradılmış Bakı Prosesinin əhəmiyyəti vurğulandı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 14-də Şimali Makedoniya Respublikasının Prezidenti xanım Qordana Silyanovska-Davkova ilə görüşüb. Qordana Silyanovska-Davkova COP29-un yüksək səviyyədə təşkil edildiyini vurğulayaraq, tədbirin açılış mərasimində Azərbaycan mədəniyyəti ilə bağlı maraqlı təqdimatın olduğunu dedi. Mədəni diplomatiyanı dəstəklədiyini qeyd edən ali qonaq Azərbaycan mədəniyyəti ilə tanış olmaqdan məmnunluğunu bildirdi. O, Azərbaycanla əməkdaşlıq üçün geniş imkanların olduğunu vurğuladı.

*Ardı Səh. 3*

Əvvəli Səh. 2

Prezident İlham Əliyev Qordana Silyanovska-Davkovanın ölkəmizə səfərinin münasibətlərimizin genişləndirilməsinə, iqtisadi-ticari və mədəni əlaqələrin inkişaf etdirilməsi işinə təkan verəcəyinə ümidvarlığını bildirdi. Dövlətimizin başçısı COP29-la əlaqədar Azərbaycana qarşı ədalətsiz təbliğatın aparıldığını vurğuladı.

Şimali Makedoniyada sərmayələr imkanlarına toxunan Prezident İlham Əliyev Azərbaycanın Balkan ölkələri ilə əlaqələrinin inkişafına önəm verdiyini qeyd etdi. Görüşdə sərmayələr, kənd təsərrüfatı, turizm, təhsil, mədəniyyət sahələrində əməkdaşlıq məsələləri ilə bağlı fikir mübadiləsi aparıldı.

Prezident İlham Əliyev Şimali Makedoniya dövlətinin başçısını ölkəmizə, Qordana Silyanovska-Davkova isə öz növbəsində dövlətimizin başçısını Şimali Makedoniyaya rəsmi səfərə dəvət etdi. Dəvətlərlə bağlı qar-

# Azərbaycan - mühüm və etibarlı TƏRƏFDAŞ!

## Prezident İlham Əliyev dünən bir sıra dövlət və hökumət başçıları ilə mühüm görüşlər keçirib











şılıqlı minnətdarlıq ifadə olundu.

Azərbaycan Prezidenti İlham Əliyev noyabrın 14-də həmçinin Yəmən Respublikasının vitse-prezidenti Abdulla Al-Alimi ilə görüşüb. Yəmən Respublikasının vitse-prezidenti Abdulla Al-Alimi COP29-un mükəmməl səviyyədə keçirilməsinə və yüksək təşkilatçılığa görə təbriklərini çatdırdı. Yəmənin vitse-prezidenti vurğuladı ki, Azərbaycanın bu uğuru bütün İslam dünyasının uğurudur. O, bu günlərdə dünyanın hər yerindən xeyli sayda nümayəndələrin, dövlət və hökumət başçılarının Azərbaycana gəlməsini mühüm hadisə kimi qiymətləndirdi, COP29-da böyük nəticələrin əldə olunduğunu vurğuladı.

Qonaq Bakı şəhərinin gözəlliyinin onları valeh etdiyini dedi. Abdulla Al-Alimi torpaqlarımızın işğaldan azad edilməsi, Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin tam bərpa olunması münasibətilə Prezident İlham Əliyevə təbriklərini çatdırdı. O, yəmənli tələbələrin hələ sovetlər dövründə Azərbaycanda təhsil aldıqlarını xatırladaraq, bu ənənələrin davam etdirilməsini xahiş etdi.

Dövlətimizin başçısı xoş sözlərə və təbriklərə görə təşəkkürünü bildirdi, COP29-un Azərbaycanda uğurla keçirilməsinin bizim müştərək uğurumuz olduğunu dedi.

Prezident İlham Əliyev işğal dövründə Ermənistanın Azərbaycan ərazilərində maddi mədəniyyət irsimizi, o cümlədən İslam dininə aid olan müqəddəs ibadətgahlarımızı, ocaqlarımızı darmadağın etdiyini, məscidlərdə donuz saxladıqlayaraq təhqirlərə məruz qoyduğunu bildirdi.

Dövlətimizin başçısı vurğuladı ki, Azərbaycan öz ərazilərini işğaldan azad edib və Ermənistanın bu işğalına son qoyub.

Görüşdə İslam həmrəyliyinin vacibliyinə toxunuldu, ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığından məmnunluq ifadə olundu, Azərbaycan ilə Yəmənin daim bir-birinin yanında olduqları vurğulandı, müxtəlif sahələrdə əməkdaşlığın inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparıldı.

Azərbaycan Prezidenti İlham Əliyev bundan başqa, İslam İnkişaf Bankının prezidenti Məhəmməd Əl-Casir ilə, Braziliya Federativ Respublikasının vitse-prezidenti Jeraldu Alkmin ilə, Nepalın Prezidenti Ramçandra Paudel ilə, Monteneqronun Prezidenti Yakov Milatoviç ilə, BMT Baş Assambleyasının 79-cu sessiyasının Prezidenti Filemon Yanq ilə, Banqladeş Xalq Respublikası Müvəqqəti Hökumətinin Baş müşaviri Məhəmməd Yunus ilə görüşlər keçirib. Görüşlərdə diqqətə çatdırılıb ki, COP29 yüksək səviyyədə təşkil olunub, həmçinin bu tədbirin uğurla keçirildiyi və burada iştirak səviyyəsinin çox yüksək olduğu vurğulanıb.

# COP29 - Bakıdan dünyaya mühüm ÇAĞIRIŞLAR!

***Noyabrın 11-də Bakıda BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası öz işinə başlayıb. Noyabrın 12-də isə COP29 Liderlər Sammitinin açılış mərasimi keçirilib. Məlum olduğu kimi bəzi Qərb dövlətləri COP29-un Bakıda keçirilməsinə etirazlarını bildirib və beynəlxalq tədbirin boykot edilməsinə çalışıblar. Lakin buna gücləri çatmadı. Hər zaman beynəlxalq tədbirlərə yüksək səviyyədə ev sahibliyi edən Azərbaycan COP29 tədbirini də yüksək səviyyədə keçirməkdədir.***

Azərbaycanı qazı və nefti ilə suçlayanlar, neft ölkəsinə belə bir tədbirin keçirilməsini yaraşdırmayanlara dövlətimizin başçısının COP29 Liderlər Sammitinin açılış mərasimindəki nitqində səsləndirdiyi fikirlər gözəl cavab oldu: Yaxşı olardı ki, ən azı onlar özlərinə və Azərbaycandan 10 dəfə artıq neft hasil edən özlərinin qonşuluğundakı ölkəyə baxsınlar. Azərbaycanın qlobal qaz atılmalarındakı payı cəmi 0,1 faizdir. Mən bu rəqəmləri auditoriyamızın diqqətinə çatdırmalıyam, çünki Azərbaycan COP29-a ev sahibi seçildikdən dərhal sonra biz əlaqələndirilmiş və yaxşıca təşkil olunmuş qarayaxma və böhtan kampaniyasının hədəfinə çevrildik. Qərbin yalan xəbər mediası, dırnaqarası müstəqil QHT-ləri və bəzi siyasətçiləri sanki ölkəmiz haqqında dezinformasiya və səhv məlumatın yayılmasında yarışa çıxıblar. Neftimizin olmasında bizi ittiham etmək bir növ Bakıda il ərzində 250-dən artıq günəşli günün olmasında bizi suçlamağa bənzəyir.






## Qlobal neft hasilatında 0,7 faiz, qlobal qaz hasilatında isə 0,9 faiz pay

Bəli, dövlətimizin başçısının da vurğuladığı kimi, dünyada sənaye üsulu ilə ilk neft quyusu Azərbaycanda, Bakıda 1846-cı ildə qazılıb Dənizdə ilk neft quyusu da Azərbaycan neftçiləri tərəfindən Xəzər dənizində XX əsrin ortalarında qazılmışdır. XIX əsrdə qlobal neft hasilatının yarısı Azərbaycanın payına düşürdü.







Dövlətimizin başçısı: Əgər o vaxt bəzi Qərb siyasətçiləri və media bizi neft dövləti adlandırsaydı, bu, bəlkə də anlaşılan olardı. Lakin əgər onlar indi, yəni bu gün də bizi neft dövləti adlandırırlarsa, bu, ədalətsizlikdir və yalnız siyasi mədəniyyət və biliklərin çatışmamasından xəbər verir. Bu gün Azərbaycan qlobal neft hasilatında 0,7 faiz, qlobal qaz hasilatında isə 0,9 faiz paya malikdir. Amma dünyada bir nömrəli neft və qaz hasilatçısı olan, Azərbaycandan 30 qat artıq neft hasil edən ölkənin yalan xəbər mediası bizi neft dövləti adlandırır.

Ölkələrə qiymət başqa meyarlara görə verilməlidir. Məsələn, Azərbaycanda işsizliyin səviyyəsi 5,4 faiz, yoxsulluğun səviyyəsi 5,2 faizdir. Yaşıl gündəliyimizə gəldikdə, mən planlarımızı artıq təsvir etdim. Ölkələr öz xarici borcunu necə idarə edirlər? Azərbaycanın xarici borcu ÜDM-in cəmi 7,5 faizini təşkil edir.

Beləliklə, ölkə göstəricilərinin qiymətləndirilməsində əsas götürülməli bu və bir çox digər mühüm meyar bunlardır, Tanrının bəxş etdiyi təbii sərvətlər meyar kimi götürülməli deyil. Mən bir neçə ay bundan əvvəl söylədim: indi mənə hücum çəkmək istəyənlərin hamısı, - mən beynəlxalq medianı nəzərdə tuturam, - mənim yalnız Tanrının bəxş etdiyi hədiyyə sözlərimə iqtibas edirlər.

Bu gün isə mən bu auditoriyada, burada təkrar etmək istəyirəm: Bu, Tanrının bəxş etdiyi hədiyyədir. Hər bir təbii sərvət - istər neft, qaz, külək, günəş, qızıl, gümüş və mis - bunların hamısı təbii sərvətlərdir. Ölkələr onların olmasına görə günahlandırılmalı və bazarda onlara tələbatın olması səbəbindən onları bazara çıxardıqlarına görə suçlanmalı deyillər. İnsanlara onlar lazımdır. Bir sözlə, mesajım belədir. COP29-un sədri kimi, əlbəttə, biz yaşıl keçidin güclü carçısı olacağıq və bunu edirik, lakin, eyni zamanda, biz realist olmalıyıq.

## Tədbir yaxınlaşdıqca bu ittihamların və hücumların sayı artacaqdı...

Bu il iyulun 20-də ”Yalan məlumatların ifşası: Dezinformasiyaya qarşı mübarizə” mövzusunda Şuşada keçirilən 2-ci Qlobal Media Forumunda Prezident İlham Əliyevin digər məsələlərlə yanaşı, böyük tədbir olan COP-la bağlı media nümayəndələrinin suallarını cavablandırmasını çox diqqətlə dinlədik. Və dinlədikcə də dövlətimizin başçısının yanaşmaları, təhlilləri ilə qürur duymamaq mümkün deyildi.

44 günlük İkinci Vətən müharibəsi zamanı dünya mediasının suallarını tez-tez cavablandıran, Azərbaycanın tarixini, Qarabağda 30 il ərzində baş verənləri, ermənilərin bu torpaqlara qarşı zorakılığını, vəhşiliyini, burada həyata keçirdikləri soyqırımlarını və dünyanın buna göz yummasını bütün detalları ilə bir tarixçi kimi izah edən dövlət başçısının bu dəfə də COP-un Azərbaycanda keçirilməsinə Qərbin narahatlığının izahını qürurla dinlədik.

Birləşmiş Ərəb Əmirliklərində, Dubay şəhərində yaşayan və işləyən media nümayəndəsi Frans Keynin ”COP29-la bağlı tədbirlərin mediada işıqlandırılmasını necə görürsünüz və Sizin yanaşmanız necə olacaqdır? Çünki böyük ehtimalla bu tədbir Qərb mediası tərəfindən qərəzli şəkildə işıqlandırılacaqdır”-sualı çox maraqlı şəkildə cavablandırıldı.

Prezident İlham Əliyev: Bizim namizədliyimiz və ev sahibliyimizlə bağlı qərar verildikdən sonra - növbəti həftə Qərb mediasında bizə qarşı hücumlar başladı.

***Ardı Səh. 5***






Əvvəli Səh. 4

# COP29 - Bakıdan dünyaya mühüm ÇAĞIRIŞLAR!



Bu, gözlənilən bir hal idi və bunu müzakirə etdiyim bir çox şəxslərlə danışıqlarımda, - həmkarlarımı, dövlət və hökumət başçılarını nəzərdə tuturam, - onlar mənə deyirdilər ki, bu, Azərbaycan üçün böyük başağrısı olacaq. Əlbəttə, biz dərk etdik ki, hücumlara məruz qalacağıq. Biz əlbəttə, bunu proqnozlaşdıra bilmərik ki, ittihamların mövzusu necə olacaqdır? Amma əminəm ki, kifayət qədər ittihamlar olacaqdır. Biz nədə ittiham olunurduq? Neft və qazla zəngin olan ölkə olduğumuz üçün. Bu, çox təəccüblü bir haldır. Yeri gəlmişkən, COP28-in ev sahibi olan Birləşmiş Ərəb Əmirlikləri də eyni mövzuda ittihamlarla üzləşdi. Təəssüf ki, bizə qarşı çox geniş və koordinasiya edilmiş media prosesi başladı, biz ilk vaxtlar buna hazır deyildik. Biz izah etməyə çalışırdıq, bu, bizim günahımız deyil ki, biz neft və qazla zənginik. Bizim fəaliyyətimiz onun əsasında qiymətləndirilməməlidir. Biz iqtisadiyyatımızı necə şaxələndirmişik, işsizliyin öhdəsindən necə gəlmişik, yoxsulluğu necə azaltmışıq, mövzular bunlar olmalıdır. Bu gün bu göstəricilər inkişaf edən ölkələrin səviyyəsindədir, bəzən ondan daha aşağı, daha azdır, yoxsulluq beş faiz səviyyəsindədir və bəzi ölkələr bunu heç yuxusunda görə bilməz. Qazıntı yanacaq növlərindən əldə etdiyimiz gəlirlərin ədalətli paylanılması çox şəffaf şəkildə, məsuliyyətli şəkildə həyata keçirilir. Buna baxmayaraq, ittihamlar davam edir. Ancaq deyə bilərəm ki, vaxt keçdikcə bizə qarşı hücumların sayı azalır, bizim COP heyətimiz çox səmərəli işləyir, öz vaxtının böyük hissəsini xaricdə keçirir, müxtəlif görüşlər keçirir. Bizim COP-la bağlı gündəliyimiz proqnozlaşdırılabilən, aydın hədəflərə, məqsədlərə, nəticələrə köklənmiş gündəlikdir. Deyə bilərəm ki, qərardan altı ay keçdikdən sonra biz daha az hücuma məruz qalırıq. Ancaq onu bilirik ki, tədbir yaxınlaşdıqca bu ittihamların və hücumların sayı artacaqdır. Bəli, şahidi olduq ki, dövlət başçısının söylədiyi kimi tədbirin başlanmasına sayılı günlər qalmış ittiham və hücunmar daha da artdı. Lakin bu qaraguruhçu qüvvələr heç nəyə nail ola bilmədilər. Çünki onların qarşısında öz ədaləti ilə dünyada tanınan Azərbaycan dayanırdı.







## Gün gələcək bizə yaşıl enerjini də irad tutacaqlar

Dövlətimizin başçısı yuxarıda adını çəkdiyimiz tədbirdə o zaman bizə tutulan iradlardan da söhbət açdı. Bəlkə də hər kəsin bilmədiyi faktları söyləməklə bilməsinə səbəb oldu ki, həmin vaxt haqqımızda hansı yalanlar uydurulub. Və müəyyən reallıqlardan sonra bu yalanları uyduranlar susub yerlərində oturdular: O ki qaldı iradlara, bilirsiniz, o vaxt da bizə başqa iradlar tuturdular. Bəlkə də siz də yəqin ki, xatırlayırsınız. Deyirdilər ki, Azərbaycanda neft yoxdur, neft kəmərləri tikilməməlidir, Azərbaycan blef edir, nefti yoxdur, nə bilim yalan məlumatlar ötürür. Bu günə qədər "Azəri-Çıraq"dan hasilatımız davam edir. "Şahdəniz" müqaviləsi bağlananda sonra da ortalığa bir uydurma atmışdılar ki, Azərbaycanda qaz yoxdur. Azərbaycan özü filan yerdən qaz alır və heç vaxt, heç bir ölkəyə qaz nəql edə bilməz. Artıq səkkiz ölkəyə qaz nəql edirik, bu il bizdə 50 milyard kubmetr hasilat gözlənilir. Onun bir hissəsi yenidən neft laylarına vurulacaq ki, oradan neft hasilatı daha da artsın, bir hissəsi daxili istehlaka yönəldiləcək, 25 milyard kubmetri isə dünya bazarlarına nəql olunacaq. Bu, təkcə mənfəət deyil. Bu, geosiyasi əhəmiyyətdir, bu sahə ilə yaxından tanış olanların hamısı yaxşı bilirlər ki, bu gün qaz amili enerji təhlükəsizliyinin bir nömrəli amilidir. Mən istisna etmirəm, bəlkə də siz haqlısınız, gün gələcək bizə yaşıl enerjini də irad tutacaqlar. Çünki yaşıl enerji ilə bağlı indi üzə çıxan bir çox məqamlar var ki, insanları və qərar qəbul edənləri düşünməyə vadar edir. Yəni, orada o materialların utilizasiyası necə olacaq? Batareyaların, akkumulyatorların taleyi necə olacaq? Yəni, indidən artıq bunun altına da bir mina qoyulur ki, lazım olan vaxtda o, kiminsə başında çatlasın. Amma yenə də deyirəm, bizim atdığımız bütün addımlar və təşəbbüslərimiz əsas məqsədi güdür - ölkəmizi gücləndirmək, iqtisadi gücümüzü artırmaq, iqtisadi və siyasi müstəqilliyimizi daha da gücləndirmək və Azərbaycanı yüksək liqaya daxil etdirmək.

Dövlət başçısının COP29 Liderlər Sammitinin açılış mərasimindəki nitqi isə bu nöqteyi nəzərdən daha maraqlı oldu: İndi isə mən Azərbaycanın Yaşıl gündəliyi haqqında bir neçə söz söyləmək istərdim. Bərpaolunan enerjidə texniki potensialımız quruda 135 giqavat və dənizdə isə 157 giqavat təşkil edir. Ötən il BƏƏ-nin Masdar şirkəti bir regionumuzda 230 meqavatlıq Günəş enerji stansiyasının açılışını etdi. Səudiyyə Ərəbistanının "Acwa Power" şirkəti isə hazırda 240 meqavatlıq külək enerjisi stansiyasını tikir.

COP29 çərçivəsində Birləşmiş Krallığın bp şirkəti ilə 240 meqavatlıq Günəş enerjisi stansiyasının dörd il əvvəl erməni işğalından azad edilmiş Cəbrayıl rayonunda tikilməsi ilə bağlı saziş imzalanacaq. Bu layihə sayəsində dünyanın ən iri neft və qaz terminallarından biri olan Səngəçal terminalında dekarbonlaşma təmin ediləcəkdir. Biz 2030-cu ilə qədər təxminən altı giqavatlıq Günəş, külək və hidroenerji stansiyalarının tikilməsini planlaşdırırıq. Lakin bu, tam planlarımızın hamısı deyil, 10 giqavatlıq bərpaolunan enerji layihələri üzrə müqavilələr və anlaşma memorandumları imzalanıb.

Biz, həmçinin ixrac bazarlarına diqqət yetiririk və Xəzər dənizindən başlayaraq Qara dənizin dibi ilə enerji kabelinin çəkilməsini nəzərdə tutan digər mühüm enerji təhlükəsizliyi layihəsinin həyata keçirilməsi üçün tərəfdaşlarımızla fəal çalışırıq.

Bu, bizə Avropaya yaşıl enerjini ixrac etmək imkanı verəcək və bu kabelin texniki potensialı dörd giqavatdır. Yeri gəlmişkən, texniki-əsaslandırma işləri bu yaxınlarda bitəcək. Lakin yenə də bu, yalnız başlanğıcdır.

Yaşıl gündəliyimiz, həmçinin Azərbaycanın müxtəlif bölgələrini əhatə edir. Beləliklə, Azərbaycanın Naxçıvan, Qarabağ və Şərqi Zəngəzur regionları yaşıl enerji zonaları elan edilib və bu, ərazimizin, demək olar ki, dörddəbir hissəsidir.

COP29 bu istiqamətdə çox önəmli bir addım olacaq. Biz bu istəkdə olanda bəziləri bəlkə də bunu anlamırdı. Bu gün də buna ağızlarını büzənlər var ki, nəyə lazımdı, qoyun rahat yaşayaq. Yenə tədbir olacaq, yenə qonaq gələcək. Biz artıq bunun bəhrəsini görürük. Azərbaycanın geosiyasi önəmi əhəmiyyətli dərəcədə artıb. Bizim beynəlxalq müstəvidə təmasda olduğumuz ölkələrlə ikitərəfli əlaqələr tamamilə başqa məcrada inkişaf edir. Ənənəvi mövzulardan başqa, bu mövzu və buna paralel olan mövzular da daxil edilir.

## Kiçik dövlətdən böyük dövlətlərə nümunə

Maraqlıdır, nə üçün Qərb neft və qazla zəngin ölkələrin COP-la bağlı tədbir keçirməsinə bu qədər qəribə baxır. Axı əslində bu tədbirin məhz belə ölkələrdə keçirilməsi vacibdir. O mənada ki, dünya görməlidir ki, hansı ölkənin iqlim dəyişmələrində rolu var, hansının yoxdur. Hansı ölkə bu beynəlxalq təşəbbüsün yanındadır, hansı yox. Bəlkə neft və qazla zəngin ölkələr arasında elə bir təşəbbüslə çıxış edəni olacaq ki, bu, bütün dünyanı xilas edəcək. Nə üçün Qərb bunları deyil, məhz neft və qazla zəngin ölkə olaraq COP-un Azərbaycanda keçirilməsinin üzərində dayanıb. Bir çox ilklərə imza atan Azərbaycan bəlkə elə bu tədbirlə dünyanın xilası layihəsini ortaya qoyacaq. Düşünürəm ki, Qərb də bunu çox gözəl bilir. Azərbaycanın nəyə qadir olduğunu dərk edir. Məsələ COP-un Azərbaycanda keçirilməsi deyil, kiçik dövlətlərin bu qədər böyük tədbirlərə ev sahibliyi etməsi dərdidir. Lakin əminliklə demək olar ki, Azərbaycan bu tədbiri elə yüksək səviyyədə başa vuracaq ki, bu kiçik dövlətdən dünyanın ən böyük dövlətlərinə nümunə olacaq. Dövlətimizin başçısının da dediyi kimi: Mən artıq qeyd etdim, inkişafda olan 50-dən çox kiçik ada dövlətləri var. Onlar üçün biz xüsusi fond təsis edirik və o fonda əhəmiyyətli dərəcədə vəsait də qoyacağıq. Onlara kömək göstərəcəyik. Əlbəttə, onlar bizim təbii müttəfiqlərimizə çevriləcək və mən digər ölkələri sadalamıram. Biz bu addımları atmaqla ölkəmizi böyük dərəcədə gücləndiririk və bu gün burada bizim COP nümayəndələri, komandamız iştirak edir. Onlar da çox fəal işləyir və mən demişəm, siz xarici ölkələrdə işləməlisiniz, bütün dünyanı dolaşmalısınız ki, Azərbaycanın mövqeyini, Azərbaycanın gündəliyini bütün tərəf-müqabillərinə çatdırasınız.

**_Mətanət Məmmədova_**








# COP29:

## Dünyanı birləşdirən Azərbaycan

***İmperator Yuli Sezarın vaxtında belə bir söz var idi: "Bütün yollar Romaya aparır". İndi desək ki, bütün yollar Bakıya gətirir, yəqin ki, heç bir mübaliğəyə yol verməriк. Günçıxandan günbatana, şimaldan cənuba dünyanın bütün ölkələrinin ən nüfuzlu nümayəndələri, bəşəriyyətin başı üstünü alan ekoloji fəlakətin qarşısını almağa can yandıran hər kəs bu günlərdə Azərbaycanın paytaxtına toplaşıb. Onların arasında demək olar ki, bütün millətlərin nümayəndələri, hər dinə, hər irqə məxsus insanlar var. Bu gün onların hamısını bir məsələ - 2030-cu ilə qədər istilik effekti yaradan qazların emissiyalarının 35 faiz, 2050-ci ilə qədər isə 40 faiz azaldılmasına nail olmaq kimi qlobal bir məsələ düşündürür və birləşdirir.***

Xəritədə tutduğu yer böyük olmasa da, Odlar Yurdu xeyirxah niyyəti ilə bu günlərdə dünya ölkələrinin iqlim mütəxəssisləri və ekoloqların cəm olduğu məkana çevrilib. Bu gün Azərbaycan paytaxtı bir mərkəz kimi qlobal istiləşmə ilə əlaqədar bütün bəşəriyyəti narahat edən, onları həmin təhlükə ilə üz-üzə qoyan problemdən çıxış yolları axtarır:

Necə etməli ki, bəşəriyyət fəlakətlə üzləşməsin, isti ocağımız buz kimi soyumasın, növrağımız pozulmasın, körpələrimiz gözüyaşlı qalmasın? Mərkəzi Avropadan, okeanın o tayından, Avstraliyadan, Uzaq Afrikadan, ada dövlətlərindən gələn hər kəsi birləşdirən budur...

COP29-da 196 ölkədən nümayəndə iştirak edir. Onların sırasında 80 prezident, vitse-prezident və Baş nazirlər var. AZƏRTAC-ın fotoqraflarının COP29-un iştirakçıları ilə bağlı hazırladığı fotoreportajı təqdim edirik.












# Azərbaycan - Özbəkistan birgə müəssisəsi: Xankəndidə tikiş fabriki

## Prezident İlham Əliyev: "Bu, məşğulluqdur, bu, istehsaldır, bu, Qarabağın inkişafıdır"

İşğaldan azad olunan hər bir ərazidə böyük abadlıq-quruculuq işləri sürətlə aparılır. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında genişmiqyaslı yenidənqurma, bərpa-quruculuq işləri davam etdirilir. İşğaldan azad olunan ərazilərin bərpası və Böyük Qayıdışın yüksək səviyyədə təmin edilməsi məqsədi ilə ardıcıl işlər görülür. Azərbaycan Prezidenti İlham Əliyevin həmin ərazilərə səfər etməsi və bərpa-quruculuq işləri ilə şəxsən maraqlanması, istehsal müəssisələrinin, sosial obyektlərin təməlqoyma, açılış mərasimlərində iştirak etməsi görülən işlərin sürətini artırmaqla yanaşı, keyfiyyətinin də yüksək olmasından xəbər verir. Azad edilmiş ərazilərdə bu gün həyata keçirilən genişmiqyaslı layihələrin uğurla icra olunmasına türk dövlətləri də öz töhfələrini verirlər. Geniş yol-nəqliyyat infrastrukturu yaradılır və bu nəhəng layihələrin icrasında Türkiyədən olan şirkətlər də fəal iştirak edirlər. Azad edilmiş torpaqlarda Türk dünyasının birliyini əyani şəkildə özünü göstərir. Azad edilmiş torpaqlarda həyat bərpa olunur. Geniş quruculuq, abadlıq işləri aparılır və Qarabağ, Şərqi Zəngəzur dünyanın ən inkişaf etmiş bölgələrindən birinə çevriləcəkdir.




### "İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ BELƏ BÖYÜK BİR MÜƏSSİSƏ YARATMAQDA BİZƏ İLK KÖMƏYİ GÖSTƏRDİLƏR"

Noyabrın 13-də Azərbaycan Respublikası-





nın Prezidenti İlham Əliyev Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev ilə görüşüb. İkitərəfli münasibətlərimizin inkişafını tarixi bir dövrü əhatə edir. Dövlətimizin başçısı Xankəndi şəhərində tikiş fabrikinin inşası ilə bağlı layihəyə görə Özbəkistan Respublikasının Prezidentinə minnətdarlığını bildirib və burada xeyli sayda insanın işlə təmin olunacağının önəmini vurğulayıb. Söhbət zamanı Bakıda Özbəkistan Evi, Özbəkistanda isə Azərbaycan Evi layihələrinin icrasından məmnunluq bildirilib, ölkəmizin Özbəkistanda ticarət nümayəndəliyinin açılması, təhsil, maşınqayırma, inşaat, mədən, əczaçılıq, pambıqçılıq, turizm sahələrində layihələrlə bağlı fikir mübadiləsi aparılıb.

Azərbaycan və Özbəkistan prezidentlərinin iştirakı ilə Xankəndi şəhərində tikiş fabrikinin videobağlantı vasitəsilə açılış dövlətlərarası münasibətlərin uğurlu inkişafına əsaslanır. "Bu fabrik birliyimizin daha bir rəmzidir. Mən qardaşım Şavkat Miromonoviçə minnətdarlığımı bildirirəm ki, bizim özbək dostlarımız qısa müddətdə Xankəndidə minlərlə insanın çalışacağı və təbii ki, mütləq əksəriyyəti qadınlardan ibarət gözəl müəssisənin yaradılmasına kömək göstərdilər", - deyə Azərbaycan Prezidenti bildirib: "Bu, məşğulluqdur, bu, istehsaldır, bu, Qarabağın inkişafıdır. Özbək qardaşlarımız isə yenə burada birincidirlər. Füzulidə məktəb tikməkdə bizə ilk yardımçı oldular, işğaldan azad edilmiş ərazilərdə belə böyük bir müəssisə yaratmaqda bizə ilk köməyi göstərdilər".

Füzulidə Özbəkistan Prezidentinin və xalqının hədiyyəsi olan məktəbin açılışı münasibətlərin inkişafında öz sözünü deyir. Özbəkistan Prezidenti Şavkat Mirziyoyev tərəfindən özbək xalqı adından hədiyyə olaraq Füzulidə



inşa edilən məktəb 960 şagird yerlikdir. Tikinti işləri yüksək keyfiyyətlə həyata keçirilib. Üç hektar ərazidə inşa edilən məktəb binası iki mərtəbə və zirzəmidən ibarətdir. Məktəbdə 40 sinif otağı, 6 laboratoriya, 2 informatika otağı, 5 funksional tədris otağı, 500 yerlik akt zalı, idman zalı, 320 yerlik yeməkxana, kitabxana var. Məktəbin həyətyanı ərazisində futbol meydançası, istirahət və keçiriləcək tədbirlər üçün yerlər, qaçış zolaqları, söhbətgahlar, nəzarət-buraxılış məntəqəsi, qazanxana, su çənləri, transformator yarımstansiyası inşa edilib. Bu məktəbin inşası qardaş ölkələrimiz arasında münasibətlərin yüksək səviyyəsindən xəbər verir.

### XANKƏNDİ ŞƏHƏRİNDƏ TİKİŞ FABRİKİNDƏ 800 İŞ YERİ

Bu tikiş fabrikinin inşası Azərbaycan və Özbəkistan arasında iqtisadi və investisiya əməkdaşlığının dərinləşdirilməsinə dair iki ölkə prezidentlərinin tapşırıqlarına əsasən həyata keçirilib. Layihənin ümumi investisiya dəyəri 11 milyon manat təşkil edir. Fabrikin xammal tədarükü üçün birgə sənaye əməkdaşlığı həyata keçirilir. Müəssisə həm yerli, həm də Özbəkistan xammalı əsasında fəaliyyət göstərəcək. Regionda qeyri-neft ixracının artımına əhəmiyyətli töhfə verəcək fabrikdə istehsal olunacaq məhsulların 80 faizi müxtəlif ölkələrə ixrac ediləcək. Ərazisi 1,2 hektar olan fabrikdə ildə 3-5 milyon ədəd müxtəlif trikotaj məhsulları istehsal ediləcək. Ümumilikdə burada 800 iş yeri yaradılacaq. Layihənin ilkin mərhələsi üzrə peşəkar təlim almış 250 nəfər hazırda işlə təmin olunub. Müəssisədə əsasən, işğaldan azad edilmiş ərazilərə qayıdan və ətraf rayonlarda yaşayan vətəndaşların məşğulluğuna xüsusi diqqət yetirilib. Azərbaycan-Özbəkistan birgə müəssisəsi olan tikiş fabriki iki ölkə arasında uğurlu əməkdaşlığın rəmzi olaraq ölkəmizdə yüngül sənayenin inkişafı üçün yeni imkanlar açır və ənənəvi dostluq, iqtisadi tərəfdaşlıq əlaqələrimizi möhkəmləndirir.

### ƏMƏKDAŞLIQ ÜÇÜN MÖHKƏM HÜQUQİ BAZA

Özbəkistan Cənubi Qafqaz regionunda əsas tərəfdaş kimi qəbul etdiyi Azərbaycanla əməkdaşlığın dərinləşməsinə xüsusi əhəmiyyət verir. Azərbaycan-Özbəkistan münasibətləri Cənubi Qafqaz və Mərkəzi Asiya regionunda bərqərar olan sabitliyin və davamlı inkişafın təmin edilməsində də mühüm rol oynayır. İki ölkə arasında bu vaxtadək imzalanmış çoxsaylı sənəd, o cümlədən Strateji tərəfdaşlığın dərinləşdirilməsi və hərtərəfli əməkdaşlığın inkişafına dair Bəyannamə bu əməkdaşlıq üçün möhkəm hüquqi baza yaradıb. Azərbaycanın Özbəkistan, eləcə də digər Orta Asiya ölkələri ilə gündən-günə daha da möhkəmlənən əməkdaşlığı həm ölkələrimizin və xalqlarımızın, həm də bütün türk dünyasının inkişafına əhəmiyyətli töhfələr verməkdədir. Bu gün Öbəkistan təkcə regionda deyil, həm də dünya miqyasında yüksək siyasi nüfuza malik olan ölkəyə çevrilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin "Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Müqavilə"nin imzalanması dövlətlərarası qarşılıqlı fəaliyyətin möhkəmləndirilməsində yeni səhifənin açılması deməkdir.

Ticari-iqtisadi münasibətlər ikitərəfli əməkdaşlığın prioritet istiqamətlərindən biridir. Bu sahədə əməkdaşlıq azad ticarət rejimində həyata keçirilir və iqtisadiyyatın müxtəlif sahələrini əhatə edir. Özbəkistan və Azərbaycan investisiya sahəsində əməkdaşlığın inkişaf etdirilməsində müəyyən uğurlar əldə etmişdir. Hər iki ölkənin nəqliyyat-tranzit potensialı böyükdür və bu sahədə əlverişli infrastruktur yaradılıb. Bu mənada, Mərkəzi Asiyadan Xəzər dənizinə, daha sonra Qafqaz vasitəsilə Qara dəniz və Aralıq dənizi limanlarına gedən nəqliyyat marşrutları xüsusi aktuallıq kəsb edir. Özbəkistan-Azərbaycan birgə biznes forumları, eləcə də iqtisadi sahədə həyata keçirilən digər tədbirlər sayəsində əməkdaşlığın yeni sahələri müəyyən edilmiş və bir sıra uğurlar qazanılmışdır. Azərbaycanın Özbəkistan, eləcə də digər Orta Asiya ölkələri ilə gündən-günə daha da möhkəmlənən əməkdaşlığı həm ölkələrimizin və xalqlarımızın, həm də bütün türk dünyasının inkişafına əhəmiyyətli töhfələr verməkdədir.

Hazırda iki ölkə arasında hərtərəfli və strateji tərəfdaşlıq münasibətləri mövcuddur. Dövlətlərarası münasibətlərdə imzalanan sənədlər, bəyanatlar mühüm rol oynayır. İki ölkə arasında münasibətlər yüksələn xətlə inkişaf edir. İqtisadi sahədə də əlaqələr inkişafdadır. Ticarət-iqtisadi, kənd təsərrüfatı, energetika, səhiyyə, nəqliyyat-logistika, ətraf mühitin mühafizəsi, dövlət xidmətlərinin göstərilməsi, mədəni-humanitar, sosial və turizm sahələrində əməkdaşlığın gücləndirilməsi ilə bağlı razılıq əldə olunub.

Azərbaycanın suverenliyinin bərpa olunması işində Özbəkistanın və özbək xalqının dəstəyini qeyd etməliyik.

İki ölkə arasında bu vaxtadək imzalanmış xeyli sayda sənəd tərəfdaşlığın dərinləşdirilməsi və hərtərəfli əməkdaşlığın inkişafına möhkəm hüquqi baza yaradıb. Təbii ki, qarşılıqlı səfərlər, bu səfərlər çəçivəsində aparılan müzakirələr, imzalanan sənədlər əməkdaşlıq üçün yeni perspektivlər açacaqdır.

*Zümrüd BAYRAMOVA*

# COP29: Xeyr, tək Avropa deyil, dünyanın hər yeri cənnətdir...











***Azərbaycan hər zaman kiçik ada dövlətlərinin yanında olub. Bu il may ayında Prezident İlham Əliyevin "İnkişaf etməkdə olan kiçik ada dövlətlərinin "Dayanıqlı firavanlıq üçün istiqamətin müəyyən olunması" mövzusunda 4-cü Beynəlxalq Konfransının iştirakçılarına ünvanladığı müraciətdə deyilirdi: Azərbaycan həmişə İnkişaf etməkdə olan kiçik ada dövlətləri ilə həmrəy olub, onların legitim maraqlarını və narahatlıqlarını müdafiə edib.***

Azərbaycanın Qoşulmama Hərəkatına 4 illik sədrliyi dövründə biz Hərəkatın gündəliyini irəli aparmaq üçün səylərimizi əsirgəmədik. Qoşulmama Hərəkatının institusional inkişafına, Hərəkatın birliyinin möhkəmləndirilməsinə və nüfuzunun artırılmasına xüsusi diqqət yetirildi. Qoşulmama Hərəkatına sədrlik Azərbaycana təşkilatın bütün üzv dövlətlərinin, o cümlədən İnkişaf etməkdə olan kiçik ada dövlətlərinin ehtiyaclarını və narahatlıqlarını daha yaxşı anlamaq üçün imkan yaratdı. Qoşulmama Hərəkatının sədri kimi Azərbaycan COVID-19 pandemiyasına qarşı mübarizə üzrə qlobal səylərin önündə gedib və bu məsələ ilə bağlı BMT-nin xüsusi sessiyasının keçirilməsi təşəbbüsü ilə çıxış edib. Azərbaycan peyvənd millətçiliyinə qarşı çıxış edərək bütün ölkələr üçün vaksinlərə ədalətli və universal əlçatanlığı təşviq edib.

Pandemiya zamanı Azərbaycan, həmçinin 80-dən çox ölkəyə, o cümlədən 20-yə yaxın İnkişaf etməkdə olan kiçik ada dövlətinə maliyyə və humanitar yardım göstərib. Keçən ilin mart ayında Qoşulmama Hərəkatının sədri kimi mən İnkişaf etməkdə olan kiçik ada dövlətlərində pandemiyadan sonrakı bərpanı dəstəkləmək üçün fəaliyyətə Qlobal çağırış elan etdim. Bu çağırışla mən beynəlxalq ictimaiyyəti pandemiyanın sosial-iqtisadi nəticələrinin aradan qaldırılması üçün İnkişaf etməkdə olan kiçik ada dövlətlərinə maliyyə yardımı və birbaşa iqtisadi dəstək göstərməyə dəvət etdim. Azərbaycan bu çağırışa vəsait ayıran ilk ölkə olub.

## Kiçik ada dövlətləri

Bir və ya bir neçə adada yerləşən dövlətlər ada dövlətləri adlanır. Sakit okean, Hind və Atlantik okeanları 47 belə ölkəni öz ətrafında birləşdirir. Bu gün iqlim dəyişikliyi və dəniz səviyyəsinin qalxması kiçik ada dövlətlərinin inkişafı və hətta mövcudluğu üçün təhlükə yaradır. Belə olan təqdirdə isə onlara kömək göstərmək, bu xalqları qlobal iqlim dəyişmələrinin bəlasından xilas etmək insanlıq naminə bütün dünyanın, eləcə də inkişaf etmiş böyük dövlətlərin işidir.

İnkişaf etməkdə olan kiçik ada dövlətlərinin böyük ədalətsizliklərlə üzləşdiyi, iqlim dəyişmələrinin, artan qiymətlərin, COVID-19 pandemiyasının bu ölkələrə ciddi ziyan vurduğu, onların hökumətlərinin çətin vəziyyətdə olduqları bütün dünyaya məlumdur. Noyabrın 13-də Bakıda COP29 çərçivəsində keçirilən inkişaf etməkdə olan kiçik ada dövlətlərinin (SIDS) sammitində çıxış edən BMT-nin Baş katibi Antonio Quterreş bu barədə faktlardan danışıb: Siz - kiçik ada dövlətləri nümayiş etdirirsiniz ki, iqlim ambisiyaları özünü necə büruzə verir. Siz cavab tədbirlərini görən ilk tərəfsiniz. Dünya sizi dəstəkləməli, ilk növbədə, temperatur artımının 1,5 dərəcədə saxlanılması üçün yorulmadan çalışmalıdır. Bu, o deməkdir ki, 2030-cu ilə qədər qlobal atılmalar illik əsasla 9 faiz azalacaq. Həmçinin ənənəvi yanacaqdan istifadə sürətlə və ədalətli şəkildə azalacaq, COP28-in nəticəsi təmin ediləcək. Bu, həmçinin o deməkdir ki, hər ölkə 1,5 dərəcəyə uyğun olması üçün COP30-a qədər yeni, iqtisadiyyatı əhatə edən milli iqlim fəaliyyəti planlarını və ya Milli səviyyədə müəyyən edilmiş töhfələr sənədini təqdim edəcək.

COP29-da dünya səviyyəli maliyyə arxitekturasının yaradılması istiqamətində mühüm addımların atıldığını qeyd edən Baş katib onu da bildirdi ki, iş burada və indi başlayır. Bizə inkişaf etməkdə olan ölkələrin ehtiyac duyduğu trilyonlarla dollarlıq vəsaitləri toplayan yeni iqlim maliyyə məqsədi lazımdır və imtiyazlı dövlət vəsaitlərində xeyli artım olmalıdır. Antonio Quterreş bu məsələdə yubanmamağa çağırış edib bə vurğulayıb: bu COP çərçivəsində və ondan sonrakı dövrdə sizi fəaliyyəti tələb etmək üçün öz səlahiyyətlərinizdən istifadə etməyə çağırıram. Ədaləti tələb edin. Çünki yubanmaq olmaz.

## Azərbaycan kiçik ada dövlətləri üçün 10 milyon ABŞ dolları məbləğində vəsait ayırdı

COP29 çərçivəsində inkişaf etməkdə olan kiçik ada dövlətlərinin (SIDS) Sammitində çıxış edən dövlətimizin başçısı Azərbaycanın COP29-a ev sahibi olduqdan sonra inkişaf edən kiçik ada dövlətləri ilə münasibətlərin yeni, daha yüksək səviyyəyə qalxdığını, kiçik ada dövlətlərinin səsinin qlobal arenada eşidilməli olduğunu vurğulayaraq deyib: Mən inkişaf etmiş bütün ölkələrə, xüsusən də müstəmləkə keçmişi olan ölkələrə müraciət edirəm ki, kiçik ada dövlətlərinə maddi və texniki dəstək göstərsinlər ki, onlar ölkələrini iqlim dəyişmələrinin fəsadlarından qoruya bilsinlər. İqlim dəyişmələri hər bir ölkəyə, o cümlədən Azərbaycana təsir göstərir. Görürük ki, Xəzər dənizi ilbəil daha da dayazlaşır. Görürük ki, çaylarımızda daha az su, dağlarımızda daha az qar var. Əfsuslar ki, keçmişdə heç vaxt görmədiyimiz daşqınlar və kəskin yağışlar bu gün reallıqdır. Bir sözlə, hər bir ölkə təsirə məruz qalır, lakin kiçik ada dövlətləri üçün bu ekzistensial təhlükədir.

Azərbaycanın kiçik ada dövlətlərinə özünün birmənalı dəstəyini nümayiş etdirdiyini, fəlakət qarşısında zəif olan bir sıra ölkələrə qasırğa, zəlzələ və daşqınların təsirini azaltmaq üçün yardım göstərdiyini, həmçinin su təchizatı, qida təhlükəsizliyi və mədəni irsin bərpası layihələrinə dəstək verdiyini, 10-dan çox kiçik ada dövlətinin Azərbaycan universitetlərində təhsil almaq üçün tələbə təqaüdü proqramından yararlandığını, Qoşulmama Hərəkatında dördillik sədrliyi dövründə 80-dən artıq ölkəyə, o cümlədən 20 kiçik ada dövlətinə maliyyə və humanitar yardım göstərdiyini bildirən Prezident İlham Əliyev demişdir: Həmin ölkələrin üzləşdiyi çağırışların aradan qaldırılması COP29-da Azərbaycanın göstərdiyi səylərin əsasını təşkil edir. Bu ilin mayında COP-la bağlı planları müzakirə etmək üçün Baham adalarının, Tonqanın və Tuvalunun rəhbərləri Azərbaycana səfər etdilər. Qəbul olunmuş Bakı Kommünikesində COP29-da mənalı nəticələrin əldə olunmasına çağırış edilir və əlçatan iqlim maliyyəsinin vacibliyi qeyd olunur. Bu ilin sentyabrında İtki və Zərərə Cavab Fondunun fəaliyyətə başlaması ilə bağlı Bakıda ciddi irəliləyiş əldə olunmuşdur. Hazırda proses ehtiyac duyan ölkələrə, xüsusən də kiçik ada dövlətlərinə maliyyənin verilməsi üçün tamamlanmalıdır. Bu yay Azərbaycan Tonqada Millətlər Birliyi ilə Birgə Bəyannamə imzaladı.

## Avropa Parlamenti ilə Avropa Şurası Parlament Assambleyasından daha nə gözləmək olar?!

Adıçəkilən tədbirdə beynəlxalq gündəlikdə mühüm məsələlərdən olan neokolonializm və iqlim dəyişmələrinə münasibət bildirən dövlətimizin başçısı kiçik ada dövlətlərindən olan nümayəndələr qarşısında faktlarla çıxış etmiş, vəziyyətin təhlilini vermişdir: Fransa və Niderlandın xüsusən də Karib dənizi və Sakit Okean regionundakı dırnaqarası dəniz əraziləri iqlim dəyişmələrinin ən ciddi təsirinə məruz qalanlar sırasındadır. Artan dəniz səviyyəsi, kəskin hava şəraiti və biomüxtəlifliyin pozulması həmin regionlara ciddi təhlükə yaradır. Həmin icmaların səsi bir çox hallarda onların metropoliyalarındakı rejimləri tərəfindən susdurulur.

Yeni Kaledoniya, Fransa Polineziyası, Mayot, Vallis və Futuna, Korsika, Reunion, Qvadelupa, Martinika, Fransa Qvianası, Sen-Pyer və Mikelon, Sent-Mert və Sent Varfolomey kimi Fransa müstəmləkələrinin xalqları, eləcə də Niderlandın Aruba, Kurasao, Sent-Maarten, Boneyr, Sent Yefstaxiy və Saba kimi müstəmləkələrinin xalqları, - gəlin, həmin ərazidəki xalqları alqışlayaq, - bu gün XXI əsrdə də müstəmləkə hakimiyyətindən əziyyət çəkirlər. Hazırda Fransa Polineziyası və Yeni Kaledoniya 1946-1947-ci illərdə BMT tərəfindən qeyri-özünü idarə edən ərazilər kimi tanınır. Bununla belə, onların dekolonizasiya prosesi hələ də yubanır.

1966-1996-cı illər ərzində Fransa Polineziyası Fransanın apardığı 193 nüvə sınağı səbəbindən ətraf mühitin ciddi pozulması ilə üzləşib. Fransa orada torpaq və suyun kəskin dərəcədə zəhərlənməsi və radiasiyasına görə məsuliyyət daşıyır. Radiasiya səviyyəsi 4900 faizi keçib. Əgər buna Fransanın Əlcəzairdə illər boyu işğalı zamanı həyata keçirdiyi 17 nüvə sınağını əlavə etsək, biz həmin ölkə tərəfindən planetin ekosisteminə hansı zərərin vurulduğunu görərik. Fransanın dırnaqarası dəniz ərazilərində törətdiyi cinayətlər siyahısı rejimin bu yaxınlarda insan hüquqları pozulmalarını qeyd etməsək, tam olmazdı.

Dövlətimizin başçısı bütün bunları siyasi riyakarlıq adlandırmış, siyasi korrupsiya rəmzinə çevrilmiş iki təsisat - Avropa Parlamenti və Avropa Şurası Parlament Assambleyasının günahsız insanların qətlinə görə Prezident Makronun hökuməti ilə məsuliyyəti bölüşdüyünü qeyd etmiş və Fransadakı bütün siyasi məhbusların dərhal azad olunmasını bildirmişdir.

Samitdə dövlət başçısının çıxışının yaddaqalan və insan hüquqlarına yönəlmiş əsas məqamlarından biri isə bu olmuşdur: Əgər Avropanın əsas diplomatı Cozep Borrell Avropanı bağ, dünyanın qalan hissəsini isə cəngəllik adlandırırsa, onda Avropa Parlamenti ilə Avropa Şurası Parlament Assambleyasından daha nə gözləmək olar?! Əgər biz cəngəllikiksə, onda bizdən kənar durun və işlərimizə qarışmayın. Azərbaycan Qoşulmama Hərəkatının sədri kimi kiçik ada dövlətlərinə dəstək verib, COP29-un sədri kimi onları dəstəkləyəcək və gələcəkdə dostlarımızı dəstəkləməkdə davam edəcək.

## Maliyyələşmə böyük təəssürat yaratdı

Vurğuladığımız kimi, Azərbaycan tərəfdən Millətlər Birliyinin kiçik ada dövlətlərindəki birgə layihələrini dəstəkləmək üçün 10 milyon ABŞ dolları məbləğində vəsait ayrıldı. Bu, sammit iştirakçıları və kiçik ada dövlətlərinin təmsilçiləri tərəfindən xüsusi minnətdarlıqla qarşılandı. Millətlər Birliyi təşkilatının (Commonwealth) Baş katibi Patrisia Skotlend iqlim maliyyələşməsi işində uğurlu rəhbərliyə görə Prezident İlham Əliyevə bu işlərə sadiqliyə, güclü rəhbərliyə və hərtərəfli dəstəyə görə təşəkkür edib, maliyyə ilə bağlı bu yanaşma sayəsində COP29-da real nəticələrə nail olunacağına ümidvar olduğunu bildirib: COP29-a sədrlik edən tərəfin elan etdiyi iqlim maliyyələşməsinə dair Fondun yaradılması təşəbbüsü mənə böyük təəssürat bağışladı. Resursların açılmasını və paylanmasını təmin etmək üçün icra mexanizmlərinin işlənilməsinə dəstək verməyə hazırıq. Mən bu təklifi ona görə verirəm ki, üzv dövlətlərimiz təcili şəkildə iqlim maliyyəsi ilə bağlı vədlərə ehtiyac duyur. Onlar buna Yaşıl İqlim Fondu, İtki və Zərərlər Fondu xətti ilə nail ola bilər".

Beləliklə, Azərbaycanda keçirilən COP29 kiçik ada dövlətlərinin qlobal iqlim dəyişmələrinə qarşı mübarizədə dünya qarşısında yeni bir təşəbbüs və addımdır. Bu təşəbbüs yaxın gələcəkdə həmin dövlətlərin xilası ola bilər.

***Mətanət Məmmədova***

# Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyası arasında əməkdaşlıq memorandumu imzalanıb

***Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi nümayəndə heyəti Çin Kommunist Partiyasının (ÇKP) dəvəti ilə Çin Xalq Respublikasında səfərdədir.***

Səfər çərçivəsində noyabrın 13-də YAP nümayəndə heyəti ilə ÇKP Mərkəzi Komitəsinin Beynəlxalq əlaqələr şöbəsinin müdiri, nazir Lyu Cyançao arasında görüş keçirilib.

Nümayəndə heyətini salamlayan və ölkəsində görməkdən məmnunluğunu ifadə edən Lyu Cyançao Azərbaycan-Çin münasibətlərinin yüksələn xətt üzrə inkişafının təqdirəlayiq olduğunu vurğulayıb. Bir-birinin maraqlarına hörmət edən, ərazi bütövlüyü və suverenliyini dəstəkləyən iki ölkə arasında əlaqələrin siyasi, iqtisadi, mədəni, humanitar, nəqliyyat-logistika və digər sahələri əhatə etməklə çoxşaxəli xarakter daşıdığını bildirən L.Cyançao Çinin Azərbaycanla qarşılıqlı faydalı əməkdaşlığı genişləndirməkdə maraqlı olduğunu diqqətə çatdırıb.









2024-cü ilin iyul ayında Astanada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə Çin Xalq Respublikasının Sədri Si Cinpinin görüşünə diqqəti cəlb edən L.Cyançao iki dövlət arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamənin imzalanmasının işbirliyinin dərinləşdirilməsi baxımından önəmini qeyd edib. O, Azərbaycan ilə Çin arasında qlobal arenada, xüsusilə də beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın hər iki ölkənin maraqlarının qorunması üçün müstəsna əhəmiyyət daşıdığını bildirib. L.Cyançao Çinin Azərbaycanın müxtəlif platformalarda, o cümlədən BRICS çərçivəsində ikitərəfli və çoxtərəfli əməkdaşlığı inkişaf etdirməsinə dəstək verdiyini qeyd edib.

Çinin Azərbaycanın beynəlxalq əhəmiyyətli təşəbbüslərini təqdir etdiyini söyləyən Lyu Cyançao ölkəmizin qlobal iqlim dəyişikliyinin fəsadlarına qarşı mübarizədə əhəmiyyətli rolunu və dəyərli töhfələrini xüsusi vurğulayıb. O, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29-un Azərbaycanda keçirilməsi münasibətilə təbriklərini çatdırıb və ölkəsinin də bu tədbirdə geniş nümayəndə heyəti ilə yüksək səviyyədə təmsil olunduğunu ifadə edib.

Qarşılıqlı səfərlərin səmərəli fikir və təcrübə mübadiləsi baxımından önəminə diqqəti cəlb edən L.Cyançao dövlətlər və partiyalar arasında hər bir təmasın əməkdaşlığın genişlənməsinə xidmət etdiyini vurğulayıb. O, Çin Kommunist Partiyasının geniş beynəlxalq əlaqələrə malik olduğunu və Yeni Azərbaycan Partiyası ilə münasibətlərin inkişafına böyük önəm verdiyini bildirib. Ötən il YAP nümayəndə heyətinin Çinə səfərini məmnunluqla xatırlayan Lyu Cyançao səfər çərçivəsində kifayət qədər əhəmiyyətli və məhsuldar görüşlərin keçirildiyini vurğulayaraq "Əminəm ki, YAP nümayəndə heyətinin ölkəmizə budəfəki səfəri də hərtərəfli əməkdaşlığa stimul verəcək. Xüsusilə də, partiyalarımız arasında əməkdaşlıq memorandumunun imzalanması yeni imkanlar və perspektivlər yaradır. Memorandumdan irəli gələn vəzifələrin yerinə yetirilməsi dostluq və tərəfdaşlıq münasibətlərinin inkişafına, prioritetlərin reallaşdırılmasına - ortaq hədəflərin gerçəkləşməsinə xidmət edəcək", - deyə vurğulayıb.

Lyu Cyançao YAP nümayəndə heyətinin İkinci Qlobal Cənub Beyin Mərkəzləri Dialoqunda iştirakının ortaq hədəflər naminə səmərəli müzakirələrin aparılması və gələcək əməkdaşlıq istiqamətlərinin müəyyənləşdirilməsi baxımından böyük önəm kəsb etdiyini vurğulayıb.

Dəvətə, yüksək qonaqpərvərliyə və səmimi qəbula görə rəhbərlik etdiyi nümayəndə heyəti adından minnətdarlıq ifadə edən YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov dostluq, qarşılıqlı faydalı əməkdaşlıq və strateji tərəfdaşlığa əsaslanan Azərbaycan-Çin münasibətlərinin hər iki ölkənin liderlərinin siyasi iradəsi sayəsində dinamik inkişafa malik olduğunu və mühüm perspektivlər vəd etdiyini söyləyib.

O, Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamənin qəbulunun tarixi əhəmiyyətə malik olduğunu vurğulayaraq hazırda müxtəlif sahələri əhatə edən çoxşaxəli əməkdaşlığın dərinləşdirilməsi üçün əlverişli şəraitin olduğunu diqqətə çatdırıb: "Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Çin Xalq Respublikası və Azərbaycan Respublikasının rəsmi olaraq strateji tərəfdaşlara çevrilməsi böyük nailiyyət və yüksək məsuliyyətdir".

Tahir Budaqov iki ölkənin beynəlxalq müstəvidə əməkdaşlığının əhəmiyyətinə diqqəti cəlb edərək Çinin ölkəmizin BRICS platformasında təmsilçiliyinə və Şanxay Əməkdaşlıq Təşkilatı ilə əlaqələrinin inkişafına dəstəyinin dostluq və etibarlı strateji tərəfdaşlıq nümunəsi olduğunu söyləyib.

Bütün sahələrdə, xüsusilə də innovativ texnologiyalar, "yaşıl iqtisadiyyata" keçid və nəqliyyat-logistika sahəsində işbirliyinin dərinləşdirilməsi üçün geniş imkanlara diqqəti cəlb edən Tahir Budaqov Azərbaycanın Çinin "Bir kəmər, bir yol" layihəsinə ilk dəstək verən ölkələrdən biri kimi bu layihə və Orta Dəhliz çərçivəsində əməkdaşlığın genişləndirilməsində maraqlı olduğunu vurğulayıb. O, Azərbaycanın təşəbbüsü olan Zəngəzur dəhlizinin reallaşdırılmasının bir çox dövlətlərin mənafeyinə xidmət edən qlobal xarakterli yeni əməkdaşlıq platformasının formalaşması baxımından əhəmiyyətini vurğulayıb.

Azərbaycanın öz ərazi bütövlüyü və suverenliyini bərpa etməsi nəticəsində yeni geostrateji reallıqların yarandığını söyləyən YAP Sədrinin müavini hazırda regionda mövcud olan vəziyyət, işğaldan azad olunmuş ərazilərdə aparılan genişmiqyaslı bərpa və quruculuq işləri barədə ətraflı məlumat verib. O, Azərbaycanın beynəlxalq hüququn təməlində dayanan suverenlik və ərazi bütövlüyü prinsiplərinə böyük önəm verdiyini, beynəlxalq münasibətlər sisteminin subyekti olan ölkələrin, o cümlədən Çinin ərazi bütövlüyünə, eləcə də Vahid Çin prinsipinə dəstəyini daim ifadə etdiyini nəzərə çatdırıb. YAP Sədrinin müavini Çinin Azərbaycanın ədalətli mövqeyini dəstəkləməsini də minnətdarlıqla vurğulayıb.






Azərbaycanın bəşəriyyəti narahat edən qlobal problemlərin həllində yaxından iştirak etdiyini, o cümlədən iqlim dəyişmələrinə qarşı fəal mübarizə mövqeyi sərgilədiyini söyləyən Tahir Budaqov Prezident İlham Əliyevin Sərəncamı ilə 2024-cü ilin ölkəmizdə "Yaşıl dünya naminə həmrəylik ili" elan olunduğunu və ölkəmizin hazırda COP29-a uğurla ev sahibliyi etdiyini diqqətə çatdırıb. O, belə bir mötəbər tədbirin Azərbaycanda keçirilməsinin respublikamıza beynəlxalq müstəvidə böyük etimadın daha bir bariz nümunəsi olduğunu vurğulayaraq Çinin bu məsələdə ölkəmizə dəstəyinə görə minnətdarlıq ifadə edib.

Azərbaycan-Çin münasibətlərinin inkişafında iki ölkənin hakim partiyalarının əməkdaşlıq əlaqələrinin rolundan bəhs edən Tahir Budaqov qeyd edib ki, iki ölkə arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamədə əksini tapan başlıca məsələlərdən biri də partiyalararası əlaqələrin gücləndirilməsidir. O bildirib ki, qarşılıqlı səfərlər partiyalararası münasibətlərin bütün istiqamətlərdə inkişafına təkan verir. Son illərdə hakim partiyalar arasında təmasların artması və dialoqun gücləndirilməsinin önəmini qeyd edən YAP Sədrinin müavini "Sizin də qeyd etdiyiniz kimi, ötən il YAP nümayəndə heyətinin Çinə səfəri çərçivəsində istər Azərbaycan-Çin münasibətləri, istərsə də Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyası arasında çoxşaxəli əməkdaşlığa dair ətraflı fikir mübadiləsi aparıldı. Həmin səfər ikitərəfli əlaqələrin inkişafında mühüm bir amil kimi xüsusi əhəmiyyətə malikdir. Bu işbirliyinin davamı kimi bu gün Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyası arasında əməkdaşlıq memorandumunun imzalanması isə əlamətdar hadisə kimi müstəsna önəm daşıyır. Memorandum qarşılıqlı hörmət və etimada əsaslanan əməkdaşlığın siyasi və hüquqi əsaslarını möhkəmləndirməklə partiyalar arasında münasibətlərin keyfiyyətcə yeni mərhələyə yüksəlməsini təmin edəcək. Əminik ki, birlikdə görəcəyimiz işlər həm partiyalar, həm də ölkələrarası əlaqələrin inkişafına təkan verəcək",- deyə bildirib.

Görüş zamanı bir sıra Qərb ölkələrinin müstəqil siyasət yürüdən dövlətlərə qarşı ikili standartlara əsaslanan, beynəlxalq hüquq normalarına zidd qərəzli siyasətinin beynəlxalq təhlükəsizlik və əməkdaşlığa təhdid yaratdığı qeyd olunaraq bu hallara qarşı qətiyyətli mübarizənin önəmi vurğulanıb, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər barədə müzakirələr aparılıb.

Sonra Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyası arasında əməkdaşlıq memorandumunun imzalanması mərasimi olub. Memorandumu YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov və ÇKP Mərkəzi Komitəsinin Beynəlxalq əlaqələr şöbəsinin müdiri, nazir Lyu Cyançao imzalayıblar.

Noyabrın 13-də YAP nümayəndə heyəti, həmçinin İkinci Qlobal Cənub Beyin Mərkəzləri Dialoqu iştirakçılarının şərəfinə verilən ziyafətə qatılıb.

Qeyd edək ki, YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi nümayəndə heyətinə partiyanın İdarə Heyətinin üzvləri, millət vəkilləri Hikmət Məmmədov, Pərvin Kərimzadə, Elnarə Akimova, Ülviyyə Həmzəyeva, Azər Badamov, YAP Təftiş Komissiyasının sədri, millət vəkili Sevinc Hüseynova, Təftiş Komissiyasının üzvləri, millət vəkilləri Elman Nəsirov, Vüqar İskəndərov, Naqif Həmzəyev, YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov, YAP Gənclər Birliyinin üzvü, millət vəkili Səbinə Xasayeva, partiyanın Mərkəzi Aparatının şöbə müdirləri və yerli təşkilat sədrləri daxildir.

# Azərbaycan ilə Çin arasında çoxşaxəli münasibətlər strateji xarakter daşıyır

## YAP Sədrinin müavini ilə Szyansu vilayəti Xalq Nümayəndələri Yığıncağı Daimi Komitəsi sədrinin müavini arasında görüş keçirilib

Noyabrın 14-də Çində səfərdə olan YAP nümayəndə heyətinin bu ölkənin Szyansu vilayəti Xalq Nümayəndələri Yığıncağı Daimi Komitəsi sədrinin müavini Çjou Quançji ilə görüşü keçirilib. YAP nümayəndə heyətini ölkəsində görməkdən məmnunluğunu ifadə edən Ç.Quançji əvvəlcə Szyansu vilayəti haqqında ətraflı məlumat verib. O, Azərbaycan ilə Çin arasında çoxşaxəli münasibətlərin strateji xarakter daşıdığını və uğurla inkişaf etdiyini bildirib. Azərbaycanın Çin Xalq Respublikasının dostu və Cənubi Qafqazda ən böyük ticarət tərəfdaşı olduğunu söyləyən Çjou Quançji hər iki ölkənin bir-birinin maraqlarına hörmətlə yanaşdığını və strateji tərəfdaş kimi əməkdaşlığı dərinləşdirməkdə maraqlı olduğunu bildirib.





Parlamentlərarası əlaqələrin inkişafının önəmindən söz açan sədr müavini iki dövlətin qanunverici orqanlarında dostluq qruplarının fəaliyyət göstərməsinin Azərbaycan-Çin münasibətlərinin inkişafına mühüm töhfə verdiyini diqqətə çatdırıb.







Hakim partiyalar arasındakı məhsuldar dialoq şəraitində əlaqələrin genişləndirilməsinin əhəmiyyətindən bəhs edən Çjou Quançji Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyası (ÇKP) arasında əməkdaşlıq memorandumunun imzalanmasının dostluq və tərəfdaşlıq əlaqələrinin əsaslarını möhkəmləndirəcəyinə əminliyini ifadə edib. O diqqətə çatdırıb ki, memorandumdan irəli gələn vəzifələrin icra olunması uğurlu nəticələr verməklə qarşılıqlı faydalı işbirliyini daha da gücləndirəcək.

Səmimi qəbula və yüksək qonaqpərvərliyə görə təşəkkürünü bildirən YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev ilə Çin Xalq Respublikasının Sədri, Çin Kommunist Partiyasının Baş katibi Si Cinpinin iki ölkə arasında əlaqələrin inkişafına xüsusi önəm verdiklərini, strateji tərəfdaşlığa əsaslanan münasibətlərin genişləndirilməsi istiqamətində məqsədyönlü addımlar atıldığını vurğulayıb.

Asiya ilə Avropanın kəsişməsində olduqca mühüm coğrafi-strateji mövqedə yerləşən, beynəlxalq dialoq və işbirliyi məkanı olan Azərbaycanın öz ərazi bütövlüyü və suverenliyini bərpa etməklə yaratdığı yeni reallıqların regionda sülh, sabitlik, təhlükəsizlik, inkişaf və əməkdaşlığa xidmət etməklə yanaşı, həm ölkəmizin, həm də tərəfdaş dövlətlərin qarşısında mühüm perspektivlər açdığını söyləyən YAP Sədrinin müavini respublikamızın dövlətlərarası münasibətlərin konstruktiv müstəvidə inkişafının tərəfdarı olduğunu bildirib.

Azərbaycan-Çin əməkdaşlığının genişləndirilməsində həm hakim partiyalar, həm də parlamentlər arasındakı səmərəli əlaqələrin mühüm rol oynadığını bildirən Tahir Budaqov qeyd edib ki, YAP ilə ÇKP-nin fəal dialoqu Azərbaycan-Çin strateji tərəfdaşlıq münasibətlərinin mühüm tərkib hissəsi kimi böyük önəmə malikdir: ”Hakim partiyalar arasında imzalanan əməkdaşlıq memorandumu çərçivəsində görüləcək işlər həm partiyalarımız, həm də ölkələrimiz üçün faydalı olmaqla müştərək maraqlarımızı təmin edəcək”.

Azərbaycanın regionlarının geniş potensiala və dinamik inkişafa malik olduğunu qeyd edən YAP Sədrinin müavini iki ölkənin bölgələri arasında da əməkdaşlığın perspektivli olduğunu, bu məsələnin xüsusi diqqət mərkəzində saxlanılmasının əhəmiyyətini diqqətə çatdırıb.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər barədə müzakirələr aparılıb.

Noyabrın 14-də YAP nümayəndə heyəti ”Keyuan” intellektual elm və texnologiya şirkətini də ziyarət edib. Ziyarətçilər sənayenin müxtəlif sahələrində tətbiq edilən innovasiyalar barədə məlumatlandırılıblar.

# Arzu Erdem: ”COP29-un Bakıda keçirilməsi Azərbaycanın ətraf mühit məsələlərindəki liderlik rolunu bir daha nümayiş etdirir”

Bakı qədim tarixi və mədəni zənginliyi ilə müasirliyi və davamlılığı harmonik şəkildə özündə cəmləşdirən şəhər kimi bütün dünyada tanınır. Bu il COP29-un məhz Bakıda keçirilməsi isə Azərbaycanın ətraf mühit məsələlərindəki liderlik rolunu bir daha nümayiş etdirir. Bu tədbir, eyni zamanda, Azərbaycanın ətraf mühitin mühafizəsi və yaşıl enerji sahələrində atdığı nəhəng addımların dünyaya təqdim olunması üçün mükəmməl platformadır. Xüsusilə İkinci Qarabağ müharibəsində Zəfər qazanan Azərbaycanın davamlı inkişafı və ətraf mühitin qorunması sahəsində böyük irəliləyiş əldə etdiyi aydın şəkildə görünür.



Azərbaycan təkcə zəngin təbii sərvətləri ilə deyil, eyni zamanda, ətraf mühitin mühafizəsi və yaşıllaşdırma sahəsində də atdığı addımlarla diqqəti cəlb edən ölkədir.

Bu fikirləri türk siyasətçi, Milliyyətçi Hərəkat Partiyasının (MHP) Türkiyə Böyük Millət Məclisindəki sabiq deputatı Arzu Erdem AZƏRTAC-a açıqlamasında deyib.

Azərbaycanın bərpaolunan enerji mənbələrinə yatırdığı sərmayələrlə regiondakı digər ölkələr üçün nümunə təşkil etdiyini vurğulayan Arzu Erdem bildirib ki, Bakı təkcə memarlıq üslubu və müasir infrastrukturu ilə deyil, həm də yaşıl enerjini təşviq edən layihələri ilə tanınır: ”COP29-un Bakıda keçirilməsi Azərbaycanın bu sahədəki qətiyyətini və uğurlarını beynəlxalq aləmə təqdim edir. Xəzərin incisi Bakı dünyanın müxtəlif ölkələrindən gələn liderləri qəbul etməklə həm qonaqpərvərliyini, həm də ətraf mühit məsələlərinə həssaslığını nümayiş etdirir. Azərbaycanın iqlim dəyişikliyi ilə mübarizə çərçivəsində inkişaf etdirdiyi enerji strategiyaları, qazıntı yanacağının istifadəsinin azaldılmasına yönələn fəaliyyətləri və bərpaolunan enerji sahəsində investisiyaları ölkənin gələcəyə dair davamlı baxış sərgilədiyini göstərir. COP29-un Bakıda keçirilməsi təkcə Azərbaycanın deyil, ümumilikdə qazıntı yanacağı istehsalçıları olan ölkələrin də iqlim dəyişikliyi ilə mübarizədə fəal rol oynamalarının zəruriliyi mesajını dünyaya çatdırır”.

# YAP nümayəndə heyəti Qlobal Cənub Beyin Mərkəzlərinin İkinci Dialoqunda iştirak edib













***Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi nümayəndə heyətinin Çin Xalq Respublikasına səfəri davam edir.***

Səfər çərçivəsində noyabrın 14-də nümayəndə heyəti Qlobal Cənub Beyin Mərkəzlərinin İkinci Dialoqunun ”Qlobal Cənub: bərabərlik, açıqlıq, əməkdaşlıq” mövzusunda keçirilən açılış mərasimi və plenar iclasında iştirak edib.

Çin Kommunist Partiyası Mərkəzi Komitəsi (ÇKP MK) Beynəlxalq əlaqələr şöbəsi müdirinin müavini, BRICS Beyin Mərkəzləri Əməkdaşlığının Çin Şurasının prezidenti Çen Jounun moderatorluğu ilə keçirilən tədbirdə ÇKP Mərkəzi Komitəsinin Beynəlxalq əlaqələr şöbəsinin müdiri, nazir Lyu Cyançao, ÇKP Szyansu vilayət komitəsinin katibi, Szyansu vilayəti Xalq Nümayəndələri Yığıncağı Daimi Komitəsinin sədri Sin Çansin açılış nitqləri ilə çıxış ediblər. Xalqlar və dövlətlərə qarşı çoxsaylı təhdidlərin mövcud olduğu və qlobal kataklizmlərin hökm sürdüyü hazırkı vəziyyətdə Qlobal Cənub ölkələrinin dünyada sülh, təhlükəsizlik və dayanıqlı sosial-iqtisadi inkişafın təmin edilməsi, həmrəylik və qarşılıqlı anlaşma şəraitində əməkdaşlığın həyata keçirilməsi üçün səylərinin birləşdirilməsi və ardıcıl fəaliyyət göstərilməsinin əhəmiyyətindən bəhs edilib. Qlobal Cənub Beyin Mərkəzlərinin İkinci Dialoqunun Çin və tərəfdaş ölkələri bir araya gətirərək qlobal problemlərin həlli yollarının axtarılması, səmərəli fikir və təcrübə mübadiləsinin aparılması, yeni ideyaların irəli sürülməsi və aktual çağırışlardan irəli gələn təşəbbüslərin reallaşdırılması üçün son dərəcə önəmli platforma olduğu diqqətə çatdırılıb.

Plenar sessiyada nitq söyləyən YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Qlobal Cənub Beyin Mərkəzlərinin İkinci Dialoqunda çıxış etməkdən böyük məmnunluq duyduğunu diqqətə çatdırıb: ”Bu gün burada, Nankində bir araya gəlməyimiz qlobal prioritetlərin formalaşmasında, bərabərliyə və inklüzivliyə əsaslanan dünyanın yaranmasında Qlobal Cənubun artan rolunu və təsirini əks etdirir”.

YAP Sədrinin müavini bildirib ki, dünya əhalisinin yarıdan çoxunu təmsil edən Qlobal Cənub özündə həm də ciddi siyasi və nəhəng iqtisadi resursları cəmləşdirir: ”Qlobal Cənub Asiya, Afrika, Latın Amerikası və Karib hövzəsi boyunca yerləşən, xalqlarının müxtəlifliyi, mədəniyyətlərinin özünəməxsusluğu, siyasi və iqtisadi sistemlərinin rəngarəngliyi ilə xarakterizə olunan bir çox dövlətləri əhatə edən bir coğrafiyadır. Bu platformada təmsil olunan əksər ölkələrin xalqlarını keçmişdə məruz qaldıqları və bəzilərinə qarşı yeni simada davam edən müstəmləkəçilik və istismar siyasəti birləşdirir. Bununla belə, Qlobal Cənub son dövrlərdə yeni güc mərkəzinə, iqtisadi inkişafın, texnoloji innovasiyaların və sosial tərəqqinin lokomotivinə çevrilmişdir”.

Tahir Budaqov vurğulayıb ki, mövcud beynəlxalq münasibətlər sisteminin böhranı şəraitində qlobal problemlərin artdığı müasir dünyada qarşılıqlı hörmət, ədalət və ortaq məqsədlərə əsaslanan yeni əməkdaşlıq modelinin formalaşması üçün Qlobal Cənub ilə Qlobal Şimalın konstruktiv işbirliyi olduqca vacibdir: ”Bu kontekstdə Çin Xalq Respublikasının rolu xüsusilə diqqətəlayiqdir. Çinin irəli sürdüyü və bir çox ölkələr kimi Azərbaycanın da dəstəklədiyi ”Bir kəmər, bir yol” layihəsi Qlobal Cənubla Şimalın qarşılıqlı faydalı tərəfdaşlığını xeyli genişləndirmək potensialına malikdir. Bu layihə qlobal ticarətin ənənəvi marşrutlarını yenidən canlandırmaqla bərabər, qlobal iqtisadiyyatdan tarixən təcrid olunmuş regionlara da infrastrukturun, əlaqələrin inkişafı, rifah səviyyəsinin artırılması üçün yeni imkanlar yaradır. Bu baxımdan, qədim tarixi köklərə söykənən Azərbaycan-Çin münasibətləri bərabərlik, qarşılıqlı faydalılıq və etibarlı tərəfdaşlığın parlaq nümunəsidir. Təsadüfi deyil ki, Çin Azərbaycanın BRICS təşkilatına daxil olmaq təşəbbüsünü dəstəkləyən ilk ölkələrdəndir. Qlobal Cənubun yüksəlişinin və yeni dünya nizamının formalaşmasının təzahürlərindən olan BRICS bərabərlik, açıqlıq və əməkdaşlıq prinsiplərinə söykənən ədalətli beynəlxalq münasibətlər sisteminin formalaşmasına töhfə verməkdədir”.

YAP Sədrinin müavini əlavə edib ki, bugünkü dialoqu təşkil etməklə Çin inkişaf etməkdə olan ölkələrin səsini gücləndirmək, dünyada qarşılıqlı anlaşmanı təşviq etmək və hər kəsə faydalı olan strateji tərəfdaşlıq üçün zəmin yaratmağa sadiqliyini bir daha nümayiş etdirir: ”Qlobal Cənub ölkələri dayanıqlı iqtisadi inkişaf, rəqəmsal transformasiya və sosial tərəqqi üçün yeni standartlar yaratmaq potensialına malikdir. Biz əməkdaşlıq edərək və həmrəylik nümayiş etdirərək bərabərsizlik, təcridetmə və haqsız rəqabət kimi problemləri həll etməklə yanaşı, daha balanslı və ədalətli beynəlxalq münasibətlər sisteminin formalaşmasına töhfə verə bilərik. Asiya ilə Avropanın kəsişməsində, Şərq və Qərb sivilizasiyalarının qovşağında yerləşən Azərbaycan Qlobal Cənub ilə Qlobal Şimal arasında körpü rolunu oynamaq missiyasını həm milli mənafelər, həm də ümumbəşəri maraqlar baxımından tarixi imkan və zərurət kimi dəyərləndirir. Ölkəmizin unikal coğrafi mövqeyi bizə birləşdirici qüvvə kimi çıxış etməyə, müxtəlif regionlar arasında dialoq və əməkdaşlığı təşviq etməyə imkan verir. Azərbaycan regionda əməkdaşlığı gücləndirən, tərəfdaşlığı inkişaf etdirən beynəlxalq əhəmiyyətli enerji və logistika layihələrinin təşəbbüskarı və əsas icraçısıdır. Ölkəmizin beynəlxalq əməkdaşlığa verdiyi töhfələr suverenlik və bərabərliyə hörmət əsasında şəffaf və etibarlı tərəfdaşlığa sadiqliyimizi nümayiş etdirir”.

Tahir Budaqovun sözlərinə görə, BMT Təhlükəsizlik Şurasının uzun illər kağız üzərində qalan qətnamələrinin icrasını öz gücü hesabına təmin edərək ərazi bütövlüyünün bərpası ilə çoxillik münaqişəyə son qoyan Azərbaycan təkcə öz suverenliyinin deyil, bütün dünyada sülhün, ədalətin, bərabərliyin müdafiəçisi kimi mövqeyini aydın və qətiyyətlə ortaya qoyur. ”Multikulturalizm və dini tolerantlığın ardıcıl tərəfdarı olan Azərbaycan 2020-2023-cü illərdə Qoşulmama Hərəkatına sədrliyi dövründə bunu əyani şəkildə nümayiş etdirmişdir və bu gün də müxtəlif siyasi və humanitar forumların təşəbbüskarı və təşkilatçısı kimi çıxış etməkdə davam edir. Bildiyiniz kimi, hazırda Azərbaycanda dünyanın hər yerindən çoxsaylı dövlət və hökumət başçılarının, yüksəksəviyyəli rəsmi şəxslərin, ekspertlərin, elmi dairələrin və kütləvi informasiya vasitələrinin nümayəndələrinin iştirakı ilə BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası keçirilir. Bu, bəşəriyyəti narahat edən qlobal problemlər ətrafında fikir mübadiləsi aparmaqla onların həlli yollarını tapmaq, ideya və təcrübə mübadiləsini həyata keçirmək məqsədilə beynəlxalq əməkdaşlığın möhkəmlənməsinə Azərbaycanın növbəti töhfəsidir. COP29 tədbiri həm də qlobal kataklizmlərlə mübarizədə səylərin birləşdirilməsi məqsədilə Qlobal Cənub və Qlobal Şimal arasında səmərəli dialoq üçün platformadır.

Bugünkü tədbirdə aparılan müzakirələrin beynəlxalq münasibətlərin bərabərlik, açıqlıq və əməkdaşlıq prinsipləri əsasında qurulması yönündə təşəbbüslərə töhfə verəcəyinə və faydalı nəticələrlə yadda qalacağına inanıram. Hər birinizə gələcək fəaliyyətinizdə uğurlar arzulayıram”,- deyə YAP Sədrinin müavini əlavə edib.

Tədbirin sonunda Qlobal Cənub Beyin Mərkəzlərinin Alyansının yaradılması haqqında qərar qəbul olunub.

# COP29 xaricilərin gözündə

***COP29-da 70 mindən çox xarici və yerli nümayəndənin iştirakı və qeydiyyatı həyata keçirilib. Bunun da mütləq əksəriyyətini - 60 mindən çoxunu xaricilər təşkil edir. Burada 3 mindən çox xarici media nümayəndəsinin akkreditasiyası və qeydiyyatı həyata keçirilib. SİA olaraq dünyanın müxtəlif ölkələrindən gələn xarici qonaqların Azərbaycan və COP29 haqqında fikirlərini öyrəndik.***




**"Fominov Consulting" şirkətinin direktoru Yuriy Fominov:** ""Fominov Consulting şirkəti" Azərbaycan bazarında fəaliyyət göstərən sistem inteqratrıdır və COP29 tədbirində biz yaşıl texnologiya həlli ilə iştirak edirik. Tərəfdaşımız sərgidə Amerikanın rəsmi saxlanc sistemləri üzrə provayderi olan "Pristori" şirkətidir. "Pristori" şirkətinin həlli daha az atqılar və daha az enerji istifadəsi ilə təxminən 80% enerjini azaltmaqla yaşıl enerji texnologiyasını dəstəkləməklə iqlim dəyişikliyinə müsbət fayda vermiş olur. COP29 tədbirində iştirak etmək bizim şirkətimiz üçün qürurvericidir. Böyük məmnuniyyətlə stendimizi buraya gələn hər bir iştirakçının diqqətinə çatdırırıq. İştirakçıları yaşıl enerji və yaşıl texnologiya infrastrukturu ilə bağlı stendimizə dəvət edirik".

**Burundi Respublikasının nümayəndəsi Epimeny Nibizi:** "Mənim adım Epimeny Nibizidir, Afrikadakı Burundi Respublikasında dünyaya gəlmişəm. Burundi Azərbaycandan çox uzaqda yerləşir. COP29 tədbiri üçün burada olmaqdan məmnunam. Bu il tədbirə qoşulmağa cəhd etdim və indi buradayam. Azərbaycan çox gözəl, rahatdır və biz burada olmaqdan çox şadıq. Azərbaycanın qonaqpərvərliyinə görə təşəkkür edirəm. Bizi çox yaxşı qarşıladılar. Həm də yaxşı yeməkləriniz var. Burada olan insanlar vasitəsilə Azərbaycan haqqında məlumatlar alıram. İlk dəfədir ki, Azərbaycanda oluram. Bundan sonra da gəlməyi fikirləşirəm".

**Ekofəal Chalwyn Gifty Caulker:** "Mən Sierra Leonedənəm. Azərbaycana gəlmək çox gözəl oldu. İnsanlar çox istiqanlıdır. Onlar çox mehribandırlar, dostcanlıdırlar. Hər kəs ehtiyacımız olduğu anda bizə köməklik göstərir. Ümumilikdə Azərbaycan gözəl ölkədir. Bu ölkəni çox sevdim. COP29 tədbiri də çox gözəl təşkil olunub".

**Ekofəal Amina Schartup:** "Mən Azərbaycanda Bakıda dünyaya gəlmişəm. COP29 tədbirinin Bakıda keçiriləcəyini eşidəndə sevindim. Burada mütləq iştirak etməli idim. Tədbir çox gözəl, təhlükəsiz təşkil olunub. İqlim dəyişikliyi, qlobal istiləşmə hər birimizin problemidir. Buna diqqət etmək bütün bəşəriyyətin vəzifəsidir. İnanıram ki, COP29 tədbirində bir sıra dəyişikliklərə, problemlərin həllinə kömək edəcək qərarlar alınacaq".

**Ekofəal Alhaji Umar Njai:** "COP29 tədbirini Azərbaycan çox gözəl təşkil edib. Konfrans çox yaxşı təşkil edilib. Hər şey planlı şəkildədir. COP29 üçün burada olmaqdan məmnunam. Tədbirdə iştirak edən hər kəs planetimizin sağlamlığı üçün burada olmaqdan qürur duymalıdır. İqlim dəyişikliyi, müharibələrin yaratdığı ekoloji problemlər vaxtında həll edilməlidir".

***Söylü Ağazadə***

## "COP29-dan sonra evə xoş xatirələrlə qayıdacağam" - Fongoh Eric

"Mən də Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransı (COP29) barədə Azərbaycana dəvət almışam". Bu sözləri Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransında (COP29) SİA-ya açıqlamasında ətraf mühit üzrə maarifləndirici və icma müşahidəçisi üçün beynəlxalq mərkəzin nümayəndəsi Fongoh Eric deyib.



O bildirib ki, cənub korporasiyasına iqlimlə bağlı hərəkətləri irəli sürmək isə işlərindən biridir: "COP29 mənim ən yaxşı təcrübələrimdən olacaq. Çünki burada çox maraqlı müzakirələr təşkil olunub. İnanıram ki, COP29-dan sonra evə xoş xatirələrlə qayıdacağam. Hər şey üçün təşəkkür edirəm".

***Ayşən Vəli***

## "Konfransın çox yaxşı nəticələri olacaq" - Victor Kamara

"COP 29-da olmaqdan qürur duyuruq. Düşünürəm ki, bu konfransın çox yaxşı nəticələri olacaq". SİA xəbər verir ki, bu sözləri Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransında (COP29) xarici nümayəndə Victor Kamara deyib.



Victor Kamara bildirib ki, COP29 dünya əhəmiyyətli, olduqca mühüm bir beynəlxalq tədbirdir: "Bu Azərbaycan dövlətinin bəşəriyyət qarşısında verdiyi ən böyük töhfələrdən biridir".

***Ayşən Vəli***

## "17 noyabr xalqın dirçəlişidir"

"17 noyabr Azərbaycan xalqının tarixində mühüm hadisələrdən biridir. Məhz bu gün xalq ilk dəfə olaraq birləşmək və öz etirazını bildirmək üçün Azadlıq meydanını seçdi.




Bakının ayrı-ayrı yerlərindən, öndə tələbələr olmaqla əhali azadlıq meydanına axışır, ümumi fikirləri ifadə edirdi. Azadlıq meydanına toplaşan əhali bir tərəfdən Sovet hakimiyyətinin ədalətsiz siyasətini tənqid edir, digər tərəfdən isə ermənilərin Azərbaycana qarşı olan ərazi iddialarını rədd edirdilər". Bu sözləri SİA-ya açıqlamasında millət vəkili Anar İsgəndərov deyib.

Deputat bildirib ki, 17 noyabr tarixi yetmiş illik Sovet dönəmində ermənilərin Azərbaycan torpaqları ilə bağlı iddialarını dünyaya yaydığını, həqiqətə uyğun olmayan məlumatlar yaydığını göstərdi: "Sözügedən 70 il ərzində Azərbaycan isə xalqlar dostluğunu tərənnüm edir, beynəlmiləl siyasət yeridir və Sovet ideologiyasının təbliği ilə məşğul olurdu. Buna görə də 1980-ci illərin sonlarında Sovet dövləti süqut edərkən ermənilərə dəyər verən dünya Azərbaycanın haqqını tanımır və ermənilərin yalançı göz yaşlarına inanırdılar. Həmçinin dünya ermənilərin Azərbaycana olan ərazi iddialarını dəstəkləyərək, qəbul edirdi. Bu səbəbdən də 17 noyabr xalqın dirçəlişidir. Doğrudur, biz gecikmişdik. Lakin bizdən fərqli olaraq erməni hakimiyyəti və erməni ziyalıları Azərbaycana qarşı ərazi iddiası məsələsində birləşə bildilər.

Çox təəssüf ki, Azərbaycanın milli demokratik ziyalıları Azərbaycan hakimiyyəti tərəfindən müdafiə olunmadı, qəbul edilmədi. Yəni, ədalətsiz erməni tərəfi birləşə bildi, öz haqlarını müdafiə edən Azərbaycan isə içəridən birləşə bilmədi. Bütün bunlar keçdiyimiz tarixi yoldur. Bu tarixin nəticəsi olaraq Azərbaycan ilk nəticədə məğlubiyyətlə qarşılaşdı, torpaqlarımızın 20 faizi düşmən tərəfindən işğal olundu. Amma bundan da Azərbaycan nəticə çıxartdı və 44 günlük Vətən müharibəsi ilə düşməni darmadağın etdik, ərazi bütövlüyü və suverenliyimizi bərpa etdik".

***Səbinə Hüseynli***

# Boris Titov:

## "Azərbaycanın karbon bazarı ilə bağlı bəzi təklifləri Rusiyada artıq həyata keçirilir"



Rusiya nümayəndə heyətinin fəal iştirak etdiyi BMT-nin iqlim konfransı Bakıda öz işini davam etdirir. Rusiya Prezidentinin Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq üçün beynəlxalq təşkilatlarla əlaqələr üzrə xüsusi nümayəndəsi Boris Titov "Moskva-Baku" portalına müsahibəsində COP29-da Rusiya nümayəndə heyətinin hansı təkliflərlə çıxış etdiyini izah edib. O, eyni zamanda bir sıra ekoloji məsələlərə də münasibət bildirib. Müsahibəni oxucularımıza təqdim edirik.

***- Bakıya gəlməzdən əvvəl dediniz ki, Moskva COP29-da beynəlxalq karbon bazarının yaradılması ilə bağlı təkliflərini təqdim edəcək. Bu təkliflər haqqında bizə ətraflı məlumat verə bilərsinizmi?***

- Bilirsiniz, bu təkliflərin bəziləri artıq həyata keçirilib və ilk növbədə, Azərbaycan tərəfinə- COP29-un sahiblərinə təşəkkürlər, çünki onlar tərəfdaşları Paris Sazişlərinin 6-cı maddəsinə əsasən 2 sənəd imzalamağa inandıra biliblər. Əslində, bu, prototip olacaq və karbon bazarlarının inkişafı üçün fürsət yaradacaq. Hansı ki, çox uzun müddət dayandı. İndi isə bu sənədlər əsasında bu karbon bazarlarının həm dövlət səviyyəsində, həm də şirkətlər və sahibkarlar üçün necə işləyə biləcəyi barədə ciddi düşünə bilərik.

Biz də bunu BMT-yə üzv olan bütün ölkələr səviyyəsində etməyə çalışırıq ki, bunun da təbii ki, çətinlikləri var və ona görə də bunu bizə ruhən yaxın olanlarla, eyni ruhu olanlarla etmək daha yaxşıdır. İqtisadi inkişafın bir çox məsələlərini başa düşmək. Ona görə də biz vahid karbon bazarının yaradılmasını təklif edirik və bu gün biz Şanxay Əməkdaşlıq Təşkilatı çərçivəsində bu təşəbbüs üzərində xüsusi işləyirik. Azərbaycan bu dialoqda iştirak edən ölkədir. Biz onunla, dialoqun digər iştirakçıları ilə, ŞƏT-in üzvü olanlarla danışıqlar aparırıq. Bu, ölkələrimizə təsir edən ilk belə ciddi dəyişiklik olardı.

Avropa İttifaqı artıq belə bir bazar yaradıb, lakin onlar karbon vergisi ilə özlərini tikanlı məftillərlə hasarlayıblar ki, onlar karbohidrogenləri onlara ixrac etmək üçün başqa ölkələrdən götürəcəklər, həm də karbohidrogenləri olan bir sıra məhsullardan. Biz isə bütün ölkələrin eyni dərəcədə maraqlı olduğu bərabər bazar yaratmaq istərdik. Beləliklə, emissiyaları azaltmaq üçün yaşıl layihələr və ya sadəcə ətraf mühit layihələri bir ölkədə həyata keçirilə bilər və onlar hələ öz məhsullarının karbon izini azaltmağa gücü çatmayan şirkətlər tərəfindən maliyyələşdirilə və satın alına bilər. İndi eyni iş BRICS çərçivəsində aparılır.

Bu gün biz hər gün COP29-da milli nümayəndələr və nümayəndə heyətləri ilə ŞƏT və BRİKS çərçivəsində karbon bazarı yaratmaq üçün tərəfdaş ölkələr şurasının yaradılması haqqında danışırıq.

***- COP29-da Azərbaycanda "güzgü" karbon lifi sınaq poliqonunun yaradılmasına dair memorandum imzalanıb. Sizcə, Rusiya ilə Azərbaycan arasında daha hansı layihələr müzakirə oluna və həyata keçirilə bilər?***

- COP29-da müəyyən layihələri müzakirə edən çoxlu sayda şirkətlər, ictimai birliklər, qeyri-kommersiya tərəfdaşları var. Buraya biomüxtəliflik və müxtəlif alternativ enerji növləri daxildir. Bu gün düşünürəm ki, planetimizin indiki kimi tez istiləşməsinin qarşısını ala biləcək bir çox potensial layihələr var. Demək istəyirəm ki, biz adaptasiya ilə bağlı layihələrə daha çox diqqət yetirməliyik, çünki bu dəyişikliklər hələ də davam edir. Biz bundan qaçmayacağıq və buna görə də buna hazır olmalıyıq.

***Tərcümə - Elçin Bayramlı***

*Videomüsahibəyə buradan baxa bilərsiniz https://www.youtube.com/watch?v=l9l8uluCKYY*



Mətanət MƏMMƏDOVA

# Adı ŞİRİN, özü ACI

***Bəzən sadəcə "şəkər xəstəliyi" adlandırdığımız diabet hər il dünyada təxminən bir milyon insanın ölümünə səbəb olan, kəskin ağırlaşmalarla müşayiət olunan, müalicəsi böyük vəsait tələb edən xroniki, həm də sürətlə artan bir xəstəlikdir. Adı şirin, lakin özü acılarla dolu bir xəstəlik...***

14 noyabr-bu gün Ümumdünya Diabet Günüdür. Bu gündə ölkəmizdə artıq sayı 300 minədək olan şəkərli diabet xəstələrinin də payı var. Çünki onlar hansısa səbəblərdən artıq bu xəstəliyin daşıyıcısıdır. Beynəlxalq Diabet Federasiyasının məlumatına görə, əgər 2019-cu ildə dünyada şəkər xəstələrinin sayı 463 milyon nəfər idisə, hazırda bu rəqəm 537 milyondur.

Statistik məlumatlar göstərir ki, təəssüf ki, Azərbaycanda da diabet xəstələrinin sayının artması müşahidə olunur. 2017-ci ildə müalicə-profilaktika müəssisələrinin qeydiyyatında, təqribən, 243 min diabet xəstəsi olduğu halda, hazırda bu rəqəm 300 minə yaxındır. Şəkərli diabet digər xəstəlikləri kəskinləşdirə, ana və uşaq sağlamlığına mənfi təsir göstərə bilir. Bu xəstəliyin yüksək artımı eyni zamanda onun yaratdığı tibbi, sosial, iqtisadi, psixoloji və digər problemləri də qabardır. Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) 2006-cı ildə qəbul etdiyi xüsusi bəyannamədə şəkərli diabet "ağır xroniki xəstəlik" kimi səciyyələndirilib.

2006-cı ildə BMT Baş Assambleyası tərəfindən qəbul edilən qətnaməyə əsasən, 2007-ci ildən etibarən hər il noyabrın 14-ü BMT-nin Ümumdünya Diabet Günü kimi hesab olunur. Bu qətnamənin əsasında dövlətlər ilk dəfə olaraq, qeyri-infeksion xəstəlik olan diabeti dünya miqyasında sağlamlığa ciddi təhlükə mənbəyi sayaraq, İİV/QİÇS, vərəm, malyariya kimi infeksion xəstəliklərlə eyni səviyyədə qəbul etdilər. Qətnamə BMT-yə üzv dövlətləri bu günü təsdiq etməyə, həmçinin bütün millətləri diabetin qarşısını almaq və müalicə etmək üçün milli siyasət oriyentasiyasını hazırlamağa dəvət edib.

Bu faktları sadalamaqda məqsədim yuxarıda da vurğuladığım kimi, şəkərli diabetin adi yox, ciddi xəstəlik olduğunu bir daha nəzərə çatdırmaqla, bu xəstəliklə hər birimizin mübarizə aparmalı olduğunu anlatmaqdır. 300 min heç də kiçik rəqəm deyil. Hələ bu rəqəmin 1800-nün uşaq və yeniyetmələr olduğunu nəzərə alsaq, bu, daha qorxuludur və həyəcan təbilinin çoxdan çalınmalı olduğunu göstərən faktdır.

Düzgün həyat tərzi keçirməklə, evdənkənar qidalarla qidalanmamaqla bu xəstəliyin qarşısını ala bilərik. Ən əsası isə stressdən uzaq olmaqla şəkərli diabeti özümüzdən uzaqlaşdıra, bununla həm özümüzü, həm ailə üzvlərimizi qorumuş olarıq. Bu halda həyatın gözəlliyini də dərindən duya-duya yaşaya bilərik.

Həyat gözəldir... Sağlam yaşadığımız müddətdə bunu dərk etmək istəməsək də, "belə olmalıymış",- deyə düşünsək də, xəstələnəndə tam mənası ilə anlayırıq. Anlayırıq ki, həyatı xəstəliyin verdiyi ağrı-acı ilə yaşamaqdan çətin heç nə yoxdur. Anlayırıq ki, yaşadığımız gün deyil, ağır, ötüb-keçməyən ildir, əsrdir. Odur ki, bütün bəşəriyyət sağlam olmaq, sağlam yaşamaq üçün mübarizəyə qalxmalıdır. Hər şeyi bir kənara qoyub sağlamlığımız üçün bütün maneələri əllərimizlə özümüzdən kənarlaşdırmalıyıq. Təbiətdə, ətraf aləmdə, iş yerində, evdə sadəcə ruhumuzu oxşayan, sağlamlığımıza xidmət edəcək anlarla yaşamalıyıq. Həyat məhz bu zaman öz gözəlliyi ilə bizim ola bilər. Bu gün haqqında söhbət açdığımız diabet xəstəliyinin də həyatımızın gözəlliyinə kölgə saldığını nəzərə alıb, onunla mübarizə aparmaq və şəkərsiz şirin həyatın sahibi olmaq diləyilə...

## FELYETON

# Soyunaq inkişaf edək

O gün şəhərdə bir köhnə dostumla qarşılaşdım, dedik gedib bir çay içək, dərdləşək. Az getdik, üz getdik, dərə-təpə düz getdik, çatdıq milli çayxanalarımızdan birinə. İçəridə qarğa bazarıdır, yarıçılpaq bir qız müştərilərə çay, pivə zad gətirir, onlar da ona söz atır, bədənini maraqlı baxışlarla süzürlər. Səs-küydən söhbət edə bilmirik, həm televizorda bir müğənni ulayır, həm müştərilər hərəsi telefonda bir video qoyub baxır, 5-6 səsə bir birinə qarışıb. Durub mürəxxəs olduq, parkda skamyada oturub söhbətləşdik.

Söhbət son vaxtlar dünyada və ölkəmizdə vüsət alan lütləşmə prosesindən düşdü. Dostum dedi mənə elə gəlir ki, dünyada aparılan lütləşdirmə siyasəti ekoloji və iqtisadi faktorlarla bağlıdır. İnsanlar paltar geyinəndə xeyli pambıq əkilməlidir, kimyəvi parçalar istehsal olunmalıdır, tekstil sənayesi işləməlidir, nəqliyyat daşımaları baş verməlidir və sairə. Bu da həm iqtisadi yükü artırır, həm də ekoloji problemə təkan verir. Üstəlik, insanların xərci artır. Bu səbəbdən də qlobalistlər düşünüblər ki, tədricən paltardan imtina edib ibtidai icma quruluşuna qayıdaq, lüt gəzməyə başlayaq. Mən bu fikirləri dəstəkləyərək dedim ki, etiraz etmirəm, qənaət də vacibdir, ekologiyanı qorumaq da. Amma qışda soyuqda nə edəcəyik? Xəstələnib ölərik ki. Dostum dedi ki, xoşbəxtlikdən bu məsələdə cinsi diskriminasiya müşahidə olunur. Belə ki, qlobal transhumanistlər ancaq qadınların paltardan imtina etməsinə çalışır. Yəqin ki, onların soyuğa kişilərdən daha dözümlü olmasına görə. Bu fikirlə razılaşdım. Çünki ədalətli və elmi yanaşmadır, mən öz gözümlə dəfələrlə görmüşəm ki, qışın soyuğunda bir çox qızlar, qadınlar yarıçılpaq gəzirlər, heç veclərinə də deyil, amma biz altdan geyinib üstdən qıfıllanırıq, yenə üşüyürük. Bu səbəbdən bu məsələdə qlobal planın cinsi kontekstdən fərqli yanaşmasını dəstəkləyirəm.




Dostum dedi ki, burada ciddi problemlər yarana bilər. Belə ki, bəzi "geridəqalmış" qadınlar müasirləşib inkişaf etmək istəmədiyinə görə normal geyimdə gəzəcəklər, deyəcəklər ki, biz heyvan deyilik, əynimizə paltar geyməliyik.

Onun bu fikri ilə razılaşmadım, dedim ki, belələrini də zorla, məcburetmə metodları ilə müasirləşdirməyin yolları taplılacaq yəqin ki. Onlar ya linç ediləcək, ya da küçəyə çıxmalarına məhdudiyyət qoyulacaq. Digər tədbirlər də mümkündür. Heç kim müasirlikdən geri qalmamalıdır. İnkişaf qarşısıalınmazdır. Hələlik bunu maarifləndirmə yolu ilə etməyə çalışırlar, hər yeri lüt qadın heykəlləri ilə doldururlar, televiziya və internet normal qadın obrazını ancaq yarıçılpaq formada göstərir. Gec-tez yerdə qalan köhnəliyin qalıqları da bu tendensiyaya qoşulmağa məcbur olacaqlar. Dostum dedi ki, burda ciddi zorsuzdurmalar yaranacaq. Bir çoxları heç də zombiləşmək istəmir, insani mənəvi dəyərlərinə sadiq qalaraq yaşayırlar. Qatı dindarlar və radikal mühafizəkarlar da var, onlar heç cür təslim olmayacaqlar.

Dedim a kişi, necə olmayacaqlar? Məgər min illərlə belə deyildi, Sovet dövründə hamı normal paltar geyinmirdi? Elə 90-ların əvvəlində hələ də belə idi. Bəs keçən 30 il vaxtda necə çoxlarının düşüncəsi, psixologiyası dəyişdi? Necə oldu ki, əvvəl insanlar normal qəbul etdikləri şeyi indi anormal sayırlar, anormal qəbul etdiklərini normal? Görürsənmi, maarifləndirmə, vadaredici və təhrikedici metodlarla istənilən cəmiyyəti dəyişmək mümkündür. Bəs Overton pəncərəsi nədən ötrüdür?

Dostum bu yerdə qəzəbləndi, dedi şəxsən mən sonadək mübarizə aparacam, təslim olmayacam. İstəyirlər məni linç etsinlər xeyri yoxdur, mən də, ailəm də əynimizə həmişə normal paltar geyəcəyik. Gördüm çox əsəbidir, təsəlli verdim ki, qaqa qorxma, bu lütləşmə prosesinin nəticəsində biz sürətli inkişaf edəcəyik, hamı alim olacaq, kosmik gəmilər yaradacağıq, nanotexnologiya nümunələri ixtira edəcəyik və s.

Dostum daha da qəzəblənib dedi, hə, görmürsənmi yarıçılpaq gəzən Afrika qəbilələri necə inkişaf ediblər, amma öz dininə və milli dəyərlərinə sadiq qalan mühafizəkar yapon xalqı isə geridə qalıb hər sahədə. Etiraf etməliyəm ki, bu, tam darmadağın idi. Hələ heç bir mübahisədə belə rəzil məğlubiyyətə uğramamışdım. Ona görə də təslim oldum, razılaşdım ki, bu proses xalqımızın mənəvi dəyərlərini çökdürür, milli mədəniyyətimizi məhv edir, əvəzində faydalı heç nə vermir. Dostum dedi ki, əgər belədirsə, onda niyə xalqımız öz milli mədəniyyətini, mənəvi dəyərlərini qorumur, özünü fransıza, amerikana, hollanda bənzətməyə çalışır? Doğrusu, çox çətin sual idi, mən bunun cavabını necə verə bilərdim? Ona görə də, dedim qaqa, bunun səbəblərini bilirəm, amma uzun söhbətdir, inşallah növbəti yazımda... pardon, növbəti görüşümüzdə bu haqda ətraflı danışarıq.

Beləcə ayrıldıq, amma növbəti görüşdə bunu ona necə izah edəcəyim fikri məni götürüb. Gərəkdir ki, ona qədər əsl səbəbləri tapıb bu adama izah eləyəm. Yoxsa, rüsvay olacam. Bilən varsa, mənə poçtla yazsın zəhmət olmasa - elchinbayramli@mail.ru.

***Elçin Bayramlı***

# “Hələ davam edən COP29 artıq bir sıra məqsədlərinə çatıb”

**“COP29 bəşəriyyətin diqqətini dünyadakı iqlim problemlərinə çəkməklə yanaşı, həm də həmin problemlərdən xilas yolunu göstərir”. Bu sözləri SİA-ya açıqlamasında hərbi ekspert Cəlil Xəlilov deyib.**

O bildirib ki, COP29-un bütün bəşəriyyət üçün əsl önəmi artan ekoloji problemlərin müzakirəsi ilə yanaşı, onlardan qurtulmaq üçün xilas yollarının gündəmə gətirilməsi, bu sahədə konkret qərarların qəbuludur: ”Yəni, Azərbaycanda keçirilən COP29 dünyanı ekoloji fəlakətdən qurtarmaq üçün dönüş nöqtəsidir. Bütün dünya məhz COP29 sayəsində ekoloji fəlakətin nə qədər yaxında olduğunu, planetin gələcəyinin necə böyük təhlükə ilə üz-üzə qaldığını dərk etdi. Dünyanı bu fəlakətdən qurtarmaq üçün ya indi kritik, fundamental addımlar atılmalı, ya da bəşəriyyət öz məhvinə hazır olmalıdır.

Bakıda keçirilən COP29-da 196 ölkədən 72 min iştirakçı qeydiyyatdan keçib ki, onların arasında 80 prezident, vitse-prezident və Baş nazir var. Britaniya, İtaliya, İspaniya, Belçika, Danimarka, Finlandiya, Polşa, Yunanıstan, Çexiya, Xorvatiya, Serbiya və digər ölkələrin rəhbərlərinin, Avropa İttifaqı Şurasının Prezidentinin nümunəsində liderlərin iştirakı ondan xəbər verir ki, bu günlərdə bütün dünya Bakıya toplaşıb və planetin gələcəyi Azərbaycanda həll edilir”.




”Hələ davam edən COP29 artıq bir sıra məqsədlərinə çatıb. Artıq beynəlxalq maliyyə korporasiyaları və bank strukturlarının açıqlamaları var ki, iqlim dəyişikliklərinin fəsadlarına qarşı mübarizə məqsədilə öz maliyyə töhfələrini artıracaqlar. Nümunə üçün qeyd edək ki, Dünya Bankı maliyyə töhfəsini 170 milyarda çatdıracağını bildirib və bu, kifayət qədər böyük rəqəmdir. Bütün bunlar COP29-dan əsas gözlənti olan yeni iqlim maliyyəsi hədəfi üzrə tarixi razılaşmanın əldə olunması üçün COP29-da danışıqlar üçün əla atmosfer yaradır, ekoloji mühitin yaxşılaşması, iqlim dəyişikliklərinə qarşı daha effektiv mübarizə üçün zəmin formalaşdırır” - deyə o, əlavə edib.

*Söylü Ağazadə*

# COP29-u hədəf seçən dağıdıcı müxalifət ifşa olundu



Bu günlər Azərbaycan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) ev sahibliyi etməklə dünyanın diqqət mərkəzindədir. Dünya ölkələrinin bütün siyasi dairələri, media qurumları, cəmiyyətləri ölkəmizdə təşkil edilən COP29 konfransından danışır, öz fikir və rəylərini bildirirlər. Ümumi fikir və rəylər müsbətdir. Çünki konfransın keçirildiyi ilk gündən prinsipial və əhəmiyyətli müzakirələr aparılıb və müsbət qərarların qəbulu üçün fikirlər səsləndirilib. Xüsusilə də 2015-ci ildə Paris razılaşması imzalandıqdan sonra çoxsaylı müzakirələrə baxmayaraq, onun 6-cı maddəsi (karbon bazarları) üzrə hələ də razılıq əldə etmək mümkün olmayıb. COP29-un ilk günündə Paris sazişinin 6.4 maddəsi üzrə razılaşmaya nail olunub. Bu da ümumilikdə prinsipial xarakter daşıyan 6-cı maddə üzrə razılaşmanın əldə olunmasına ümidləri artırır. Artıq beynəlxalq maliyyə korporasiyaları və bank strukturlarının açıqlamalarına görə, iqlim dəyişikliklərinin fəsadlarına qarşı mübarizə məqsədilə öz maliyyə töhfələrini artıracaqlar. Məsələn, Dünya Bankı maliyyə töhfəsini 170 milyarda çatdıracağını bildirib. Bütün bunlar COP29-dan əsas gözlənti olan yeni iqlim maliyyəsi hədəfi üzrə tarixi razılaşmanın əldə olunması üçün COP29-da danışıqlar üçün əla mühit yaradır. Əminliklə demək olar ki, Bakıda təşkil olunan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası on illər belə yaddan çıxmayacaq və media mərkəzlərində müzakirə olunacaq konfransa olacaq. Ən əsası isə növbəti təşkilatçı ölkələr İqlim Dəyişmələri üzrə konfransları Azərbaycanda möhtəşəm şəkildə baş tutan konfransın təşkili və keçilməsi təcrübəsini öyrənməklə keçirməməyə çalışacaqlar.

## Böhtançılar rüsvay edildi

Görünən ondan ibarətdir ki, COP29 sakit və normal axarı ilə davam etdiyi bir zamanda belə xaricdəki anti-Azərbaycan qüvvələr ölkəmiz haqqında şər və böhtan xarakterli informasiyalarını tirajlamaqda davam edirlər. COP29 Liderlər Sammitində çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev ölkəmizə qarşı aparılan kampaniyanı tamamilə ifşa etdi: ”Qərbin yalan xəbər mediası, dırnaqarası müstəqil QHT-ləri və bəzi siyasətçiləri sanki ölkəmiz haqqında dezinformasiya və səhv məlumatın yayılmasında yarışa çıxıblar. Neftimizin olmasında bizi ittiham etmək bir növ Bakıda il ərzində 250-dən artıq günəşli günün olmasında bizi suçlamağa bənzəyir. Ölkələrə qiymət başqa meyarlara görə verilməlidir... Tanrının bəxş etdiyi təbii sərvətlər meyar kimi götürülməli deyil. Mən bir neçə ay bundan əvvəl söylədim: indi mənə hücum çəkmək istəyənlərin hamısı, - mən beynəlxalq medianı nəzərdə tuturam, - mənim yalnız Tanrının bəxş etdiyi hədiyyə sözlərimə iqtibas edirlər. Bu gün isə mən bu auditoriyada, burada təkrar etmək istəyirəm: Bu, Tanrının bəxş etdiyi hədiyyədir. Hər bir təbii sərvət - istər neft, qaz, külək, günəş, qızıl, gümüş və mis - bunların hamısı təbii sərvətlərdir. Ölkələr onların olmasına görə günahlandırılmalı və bazarda onlara tələbatın olması səbəbindən onları bazara çıxardıqlarına görə suçlanmalı deyillər. İnsanlara onlar lazımdır. Bir sözlə, mesajım belədir. COP29-un sədri kimi, əlbəttə, biz yaşıl keçidin güclü carçısı olacağıq və bunu edirik, lakin eyni zamanda, biz realist olmalıyıq”.

”Mənim sonuncu mesajım təxminən bir ildir ki, boykotu təşviq edən dairələrədir” deyən Prezident İlham Əliyev onu da bildirdi ki, onlar əllərində olan bütün alətlərdən istifadə etdilər ki, Bakıda COP29-u boykot kampaniyası başlansın: ”Onlara pis xəbər var: bizim 196 ölkədən gəlmiş və qeydiyyatdan keçmiş 72 min iştirakçımız var. Onların sırasında 80 prezident, vitse-prezident və baş nazirlər var. Beləliklə, dünya Bakıya toplaşıb və biz bütün dünyaya deyirik: Azərbaycana xoş gəlmisiniz!”

## Əli Kərimli, Cəmil Həsənli və xaricdəki azərbaycanlı mühacirlərin əsas məqsədi maliyyə yardımları almaqdır

İyrənc xarakter alan qaralama kampaniyasında sapı özümüzdən olan baltaların da yer alması təəccüb və təəssüf doğurur. Ən azı ona görə ki, onlar azərbaycanlı adını daşıyır və ya azərbaycanlı adına iddia edirlər. Hansı ki, onlar Fransanın, Almaniyanın, ABŞ-ın və digər qaranlıq dairələrin təlimatına uyğun olaraq hazırda təcridxanada oturub Məhkəmənin çıxaracağı cəza qərarını gözləyən Vardanyanın, Arayikin, Saakyanın, Qukasyanın və digər terrorçu başçılarının həbsdən azad edilməsini tələb edirlər. Tərəflərin iş birliyi və əməkdaşlığı təsadüfi deyil. Əgər xarici qaranlıq dairələr yerdəki təmsilçilərinə maliyyə yardımları ayırırlarsa, təmsilçilər də anti-Azərbaycan şəbəkənin qaralama kampaniyasını həyata keçirməyə cəhdlər göstərirlər. Lakin bir məsələni unutmaq olmaz ki, Arayik, Vardanyan və digər terrorçuların azadlığa buraxılması üçün göstərilən cəhdlər xarici məkrli dairələr üçün heç də məqsəd deyil, sadəcə, bir vasitədir. Əsas məkrli niyyət BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasını qaralamaq və Azərbaycanın həyata keçirdiyi böyük işlərə kölgə salmaqdan ibarətdir. Əli Kərimli, Arif Hacılı, İsa Qəmbər, Cəmil Həsənli və xaricdəki azərbaycanlı mühacirlərin isə əsas məqsədləri maliyyə yardımları almaqdır. Söz yox ki, məkrli planların həyata keçirə bilməsələr də, xaricdən maliyyə yardımları alırlar. Ancaq bir sual qaranlıq qalır: Vətənin maraqlarını satmaq qarşılığında aldıqları pul onları məmnun edirmi? Və ya o pulla mağazadan ərzaq alıb, təmiz vicdanla yeyə bilirlərmi?

*İLHAM ƏLİYEV*

## “Ən mühüm məsələ inkişaf etməkdə olan ölkələrin...” - Mafalda Duarte

”Məmnunluqla deyə bilərəm ki, ikinci dəfədir COP konfranslarında iqlim maliyyə fondları bir araya gəlir. COP28-də biz vacib çağırışla çıxış etdik. Bu çağırışda biz öz gələcək planlarımıza nəzər saldıq. Mən uzun illərdir ki, iqlim sahəsində çalışıram və öz təcrübə əsasən deyə bilərəm ki, bizə lazım olan ən mühüm məsələ inkişaf etməkdə olan ölkələrin iqlim maliyyəsi ilə bağlı ehtiyacını qarşılamaqdır”. SİA xəbər verir ki, bunu Yaşıl İqlim Fondunun (Green Climate Fund) icraçı direktoru Mafalda Duarte BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası çərçivəsində Mavi Zonada keçirilən ”COP29 Sədrliyi və MCF-in (Çoxtərəfli İqlim Fondları) Birgə Tədbiri: İqlim Təsirini Sürətləndirmək” adlı tədbirdə deyib. M.Duarte uzun müddətdir ki, iqlim maliyyəsinə çıxış imkanlarının çətinliyindən bəhs edildiyini vurğulayaraq qeyd edib:



”İqlim maliyyəsi milyonlarla təşkilatları əhatə edir. Qeyd edim ki, iqlim maliyyəsi ilə sadəcə iqlimlə bağlı təşkilatlar məşğul olmur. Ən vacib məqam bundan ibarətdir ki, biz bütün maraqlı tərəflər bir araya gələrək iqlim maliyyəsinə asan çıxışları təmin etməliyik”.

# Yaşıl zonada şirkətlər: təbiətə nə vəd edilir?

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Ekologiya və ətraf mühitin mühafizəsi” istiqaməti çərçivəsində hazırlanıb*









***Bir neçə gündür ki, Bakıda BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının (COP29) 29-cu Tərəflər Konfransı işə başlayıb. COP29 tədbirlərinin böyük əksəriyyəti Yaşıl zonada keçirilir. Yaşıl zona, müxtəlif maraqlı tərəflərin - dövlət və özəl sektor, media işçiləri, alimlər, gənclər, yerli icmalar, QHT-lər, vətəndaş cəmiyyəti və rəsmi Mavi zona nümayəndələrini də əhatə edən geniş iştirakçı auditoriyasının bir araya gələrək ünsiyyət qura biləcəyi məkandır.***




COP29 Sədrliyi tərəfindən təşkil və idarə olunan Yaşıl zona müxtəlif iştirakçıların öz baxışlarını bölüşə bilmələri üçün dinamik platformadır. Bu zona cari innovasiyaların, eləcə də iqlim dəyişmələri ilə mübarizə üzrə potensial həll variantlarının təqdim edilməsinə dair müzakirələr, panellər və əyani nümayişlər üçün mərkəz funksiyasını yerinə yetirir. COP29 Sədrliyinin rəhbərliyi altında olan Yaşıl zonanın təşkilində konseptual məqsəd iqlim dəyişmələri ilə mübarizə sahəsində dövlət qurumları ilə bütün maraqlı tərəflər arasında mühüm əməkdaşlıq əlaqələrinin qurulmasıdır.

Burada maraqlı tərəflər iqlim dəyişmələri ilə mübarizə sahəsində öz innovativ həll variantlarını təqdim etmək və prosesə töhfə vermək imkanı əldə edirlər. Onların ixtiraları, təklif etdikləri həll variantları, eləcə də əzmkar sahibkarlıq ruhu COP29-un Azərbaycanda uğura imza atması üçün mühüm əhəmiyyət kəsb edir.

### Azchemco MMC: Daha təhlükəsiz gübrə, daha sağlam məhsul

COP29 məkanı olan Yaşıl zonada öz pavilyonunu quran, məhsullarını təqdim edən yerli şirkətlərindən biri də Azchemco MMC idi. Şirkət kənd təsərrüfatı və kimya bazarlarının ehtiyacı olan etibarlı qida təminatı üçün keyfiyyətli, zərərli qatqısız, kənd təsərrüfatı məhsullarını əldəetmə imkanını həyata keçirir. Yaşıl dünya naminə kənd təsərrüfatı və iqtisadi mənbələrin daimi istifadəsini təmin etmək və gələcək nəsillərə ekoloji baxımdan təmiz dünya qoyub getmək şirkətin prioritetidir.




Pavilyona baş çəkənlərlə həmsöhbət olan təmsilçilər bildirir ki, Azchemco MMC-nin fəaliyyətinin əsas məqsədi və istiqaməti, bitkilərin qidalandırılmasında, mühafizəsində və torpaqların münbitliyinin qorunub saxlanılmasında əhəmiyyətli olan, zərərli qatqısız, yüksək keyfiyyətli maye və sülb halında məhsul istehsal etməkdir. Dünya miqyasında ekoloji təhlükəsiz və keyfiyyətli kənd təsərrüfatı məhsullarının əldə edilməsinə xidmət göstərən gübrələrin istehsalını həyata keçirən şirkətin əsas məqsədi dünyada lider və qabaqcıl kənd təsərrüfatı sahəsində gübrə istehsalı şirkəti olmaqdır.

Şirkətin icraçı direktoru Ramil Kamilli ilə söhbətimiz zamanı bildirdi ki, Azchemco MMC ümumdünya kənd təsərrüfatı sektorunda öz sözünü deyə biləcək innovativ, təşəbbüskar və istehsal etdiyi məhsullarının Azərbaycanın brendinə çevrilməsinə nail olmaq üçün fasiləsiz çalışır. Onun sözlərinə görə, şirkətin məqsədi dünya kənd təsərrüfatı kimyası sənayesində Azərbaycanı lider ölkə kimi təsdiqləmməkdir: “Bir şirkət olaraq anlayırıq ki, yaşana bilən bir dünya qurmağın yolu insana və dünyaya qiymət verməkdən keçir. Hər zaman dünyanın ekoloji sağlamlığını düşünürək istehsal etdiyimiz məhsullarımızın kənd təsərrüfatı sektoruna böyük bir töhfə olduğunu hesab edirik. Biz gələcəkdə yaşana bilən sağlam bir dünya üçün bu gündən işləyirik.”

Qeyd edək ki, şirkətin təsis olunmasında əsas məqsədi ölkəmizdə qida təhlükəsizliyi sahəsində norma və standartların beynəlxalq tələblərə uyğunlaşdırılmasına dəstək vermək, əhalinin təhlükəsiz və keyfiyyətli qida ilə təminatının yaxşılaşdırılmasıdır. Şirkətin missiyası habelə, qida təhlükəsizliyinin və keyfiyyətinin artırılması ilə rəqabət qabiliyyətliliyinin və xarici bazarlara ixrac potensialının artırılması, kənd təsərrüfatında istifadə olunan keyfiyyətli aqrokimyəvi maddələrin, bitki mühafizəsi vasitələrinin və preparatların istehsalı, həmçinin onlardan düzgün istifadəyə dair maarifləndirmə işlərinin aparılmasından ibarətdir. Bu sahədə Azchemco MMC bir sıra elmi tədqiqat institutları ilə əməkdaşlıq edir və şirkətin istehsal etdiyi məhsullar dünya şöhrətli “SGS” şirkətinin laboratoriyalarında yoxlanılaraq təsdiq olunur.

### Azmade Group: “Məsaməli hörgü blokları ilə daha az emissiya”

Sənaye sektoru olaraq fərqli təyinatlı layihələri uğurla həyata keçirən “Azmade Group” MMC-nin əsası 2018-ci ildə qoyulub. Hazırda idarə heyyəti sədri Emruz İskəndərovun fəaliyyətə başladığı ildən etibarən öz bizneslərini effektiv menecment, korporativ idarəetmə və uğurlu kadr siyasəti əsasında inkişaf etdirir.

Azərbaycanda və digər ölkələrdə etibarlı tərəfdaşları olan “Azmade Group” MMC-nin qarşıya qoyduğu əsas hədəf güclü idarəetmə, müasir texnologiyaların tətbiqi və bununladə sənaye və tikinti sektorunda güclü milli brendlərin yaradılmasıdır. Şirkət öz fəlaiyyətini ”made in Azerbaijan” brendi altında istehsal etdiyi sənaye məhsullarını ölkə daxili ilə birgə, həm də ölkə xaricində də daha çox tanıdılması üzərindən qurmağa üstünlük verir.

Şirkətin missiyası Milli sənayemizin inkişafına töhfə vermək, xüsusilə regionların inkişafına xidmət etmək, strateji idarəetmə və istehsal mədəniyyəti formalaşdırmaqla əməkdaşlarımızın, müştərilərimizin və tərəfdaşlarımızın etimadını doğrultmaq, ölkəmizlə birgə inkişaf etməkdir. Yüksək keyfiyyət standartlarına uyğun məhsul istehsal etmək və müştərilərə daimi yüksək xidmət göstərməklə regionun lider şirkətinə çevrilmək qarşıya qoyulan məqsədlərdəndir.

İctimai əlaqələr və Marketinq şöbəsinin rəhbəri Sevda Şükürovanın verdiyi məlumata görə COP29 Azərbaycan global tədbirdə yaşıl zonadakı pavilionunda AAC məsaməli hörgü bloklarını təqdim edən Azmade Group bu tikinti materialını “təbiətin dostu” adlandırır: “Məsaməli hörgü blokları dünya üzrə çox məşhurdur. Ekoloji təmiz məhsul olan bu bloklarla tikilən binalarda elektrik enerjisinə yüksək qənaət olunur. Təxminən 30-40 faizlik qənaətdən söhbət gedir. Bu da öz növbəsində karbon qazı emissiyalarının azaldılmasına xidmət edir. Xüsusilə seysmik zonalarda bu bloklarla tikilən binalar daha möhkəm və davamlı olur. Bu bloklar yüngüldür, daha az resurs tələb edir, lakin daha çox sahə inşa edir.

Məsaməli hörgü bloklarına daha yüngül və daha güvənli deyə bilərik. Düz və hamar olduğuna görə, ölçüləri dəqiq olduğu üçün əlavə işçilik tələb elərnir, xərcləri azaldır. Əhəng tərkibli olduğu üçün evdə bakteriya, həşərat çoxalmasının qarşısını alır. Bu bloklarla tikilən evlər nəfəs alır, buxar kondensasiyası olmur, nəmişlik yaranmır. Əminliklə deyə bilərik ki, bu məhsul bütün ekoloji tələblərə cavab verir. Bu bloklarla tikilən evlər yayda sərin, qışda isti olur. Qeyd edim ki, yaşıl dünya dostu olan bu blokların istehsalçısı ”Gobustane” ASC 2011-ci ildən fəaliyyət göstərir.”

***Lalə Mehralı***

SƏS
15 noyabr
2024-cü il

# “Müəllimlər daha çox şəhərlərdə işləməyə üstünlük verir”



*MÜNASİBƏT*

“Məktəblərdə yaranan vakansiyaların sayı müəllimlərin işə qəbulu müsabiqəsindən uğurla keçən, müəllim olmaq istəyənlərin tələbatını qarşılamaq üçün kifayət etmir”. Bu sözləri SİA-ya açıqlamasında təhsil eksperti Elnur Aydın deyib.

O bildirib ki, nəticədə, yüksək balla imtahanlardan keçən müəllimlər belə işsiz qalır: ”Müəllimlər daha çox şəhərlərdə işləməyə üstünlük verir. Kiçik şəhər və kəndlərdə müəllimlərə olan tələb nisbətən azdır. Çünki daha çox tələb və yüksək səviyyəli peşəkar bacarıqlar tələb edilir. Yaxşı şəraitə malik, mərkəzdə yerləşən məktəblərdə vakansiyalar daha az olur və bu yerlər üçün rəqabəti artır. Müəllimlik ixtisası Azərbaycanda maraqlı sahədir. İnsanlar bu sahəni seçir. Universitetlərə qəbul edilən müəllim sayı da artdığından, təhsilini bitirən müəllimlərin hamısı iş tapa bilmir. Müəllim sayının artması, yaxşı iş şəraiti və maaşlar, şəhərlərə üstünlük verilməsi kimi amillər məktəblərdə rəqabətin yüksək olmasına səbəb olur.

Dünyanın bir çox ölkəsində urbanizasiya, yəni kəndlərdən şəhərlərə köç var. Bu urbanizasiya şəhərlərdə müəllim sıxlığına, müəllimlərin işsiz qalmasına, kəndlərdə isə müəllim çatışmazlığına gətirib çıxarır. Belə hal bəzən fənlərlə də əlaqəli olur. Məsələn, riyaziyyat, ingilis dili müəllimi normadan çox olur, tarix-coğrafiya fənninin tədrisində isə müəllim çatışmır. Bu da boş yerlərin olma səbəblərindəndir. Bəzi hallarda isə namizədlər vakant yerlər olsa da, lazımi qədər bal toplaya bilmədikləri üçün işsiz qalırlar. Müəllimlər MİQ imtahanından keçməsələr belə, əgər vakant yer varsa, müqaviləli formada öz kənd və qəsəbələrində yerləşən bir məktəbdə müəllim işləyə bilirlər”.

***Söylü Ağazadə***


# “SƏS” qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Trampın xanımı Ağ Evdə yaşamaq istəmir - səbəbini özü açıqladı

***ABŞ-ın yeni seçilmiş prezidenti Donald Trampın həyat yoldaşı Melaniya Tramp əri rəsmi olaraq vəzifəyə gəldikdən sonra Ağ Evdə yaşamağı planlaşdırmır. Bu barədə CNN məlumat yayıb.***



Ölkənin gələcək birinci xanımı ailə şəraitinə görə bu qərara gəlib. O, Nyu-York Universitetində təhsil alan oğlu Barronun yanında olmaq üçün vaxtının çox hissəsini Nyu-York və Palm-Biçdə keçirmək istəyir.



# Göyçayda bədbəxt hadisə - çoban kanalda bataraq öldü

Göyçayda çoban kanalda bataraq ölüb. Hadisə Yuxarı Şirvan Su Kanalının Hacalıkənd kəndi ərazisindən keçən hissəsində qeydə alınıb. Seyidov İlkin Bəhram oğlu çoban işlədiyi fermanın xırda-buynuzlu heyvanlarını otarmaq üçün apardığı su kanalının üzərindən keçən su borusunun üzərinə çıxıb qarşı tərəfə keçmək istəyən zaman ayağı sürüşərək, öz ehtiyatsızlığından su kanalına yıxılıb.

Nəticədə İlkin Seyidov boğulub, onun meyiti su kanalından çıxardılıb. Faktla bağlı araşdırma aparılır.

# COP 29-dan sonra metroda güzəştlər qalacaqmı?

*QURUM RƏSMİSİ AÇIQLADI*





Məlumdur ki, bir neçə gündür BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) iştirakçıları üçün metro nəqliyyatından istifadə ödənişsizdir. Bunun üçün COP29 iştirakçıları akkreditasiya kartını təqdim etməlidir.

Qeyd edək ki, COP29 ərəfəsində ictimai nəqliyyatdan istifadənin ödənişsiz olması nəzərdə tutulub. Bura avtobus, metro və dəmir yolu nəqliyyatı daxildir. Bəs, COP29 konfransı yekunlaşdıqdan sonra ictimai nəqliyyatda akkreditasiya kartı olanlara güzəşt davam edə bilərmi? SİA mövzu ilə bağlı ”Bakı Metropoliteni” QSC-nin Mətbuat xidməti və ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi Bəxtiyar Məmmədova sorğu ünvanlayıb. Bəxtiyar Məmmədov bildirib ki, güzəştlər, əsasən, akkreditasiya kartlarına şamil edilib: ”Bu isə COP29 tədbiri başa çatana qədər qüvvədədir. Başqa hansısa güzəşt tətbiq edilməyib. Həmçinin COP29 Əməliyyat Şirkətinin təşkilatçılığı ilə könüllülərin də fəaliyyəti COP29 dövrü üçün nəzərdə tutulub”.

Xatırladaq ki, COP29 noyabrın 11-dən başlayıb, noyabrın 22-dək keçiriləcək.

***Ayşən Vəli***


*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyli küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 2700